RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 70 (8949) CÜMƏ AXŞAMI, 7 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Prezident İlham Əliyev Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə aprelin 6-da Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər edib.

## Təkbətək görüş

### İlham Əliyev Şarl Mişelin sülh naminə səylərini yüksək qiymətləndirir



Bax: səh. 2

# Mövqeyimiz dəyişməzdir

### Azərbaycanın Müzəffər Ali Baş Komandanı İlham Əliyev bunu Brüsseldən dünyaya bir daha bəyan etdi



Bax: səh. 2



## Zəfər diplomatiyası

### İlham Əliyev Brüsseldə Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etdi

**Aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti üçtərəfli görüş keçirildi.**

Bu, Azərbaycanın Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyev və Ermənistanın baş naziri arasında keçirilən altıncı görüş idi.

#### Proseslər respublikamızın mənafelərinə uyğun cərəyan edir

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da imzalanmış və Ermənistanın məğlubiyyətinin hüquqi-siyasi təsdiqi olan Bəyanatda göstərilmiş əsas nizamlama istiqamətləri üzrə növbəti addımların razılaşdırılması məqsədilə Prezident İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə ilk görüş Rusiya Prezidenti Vladimir Putinin təklifi ilə 2021-ci il yanvarın 11-də Moskvada keçirilmişdi.

Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 2021-ci il noyabrın 26-da Soçidə keçirilən növbəti üçtərəfli görüşü vacib razılaşmaların əldə olunması ilə nəticələndi. Mühüm olan həm də odur ki, bu ilin yanvarında Moskvada keçirilən ilk görüşdə olduğu kimi, Prezident İlham Əliyev Soçidə də müzakirə olunan bütün məsələlərlə bağlı Azərbaycanın maraq və mənafelərini qətiyyətlə təmin etdi.

Ardı 3-cü səh.

# 5,3 milyon nəfər iqtisadi fəal əhalinin 5 milyonu işlə təmin olunub

### Təkcə pandemiyanın davam etdiyi keçən il ölkə üzrə 69 min yeni iş yeri açılıb





Bax: səh. 3

## Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi iqtisadi inkişafa və sosial rifaha xidmət edir

Prezident İlham Əliyev bu il aprelın 4-də imzaladığı sərəncamla "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nı təsdiq edib.

Sözügedən plan dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması məqsədini daşıyır. Sənəd eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin olunmasına xidmət edir.

Məlumdur ki, korrupsiya tarixboyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olmuşdur və indi də bütün dünya ölkələrində narahatlıq doğuran məsələlərdən biri olaraq qalır.

Ardı 4-cü səh.

## Geri qayıtmayan ƏDV

### Alıcılar satıcıların qəsdən süni problemlər yaratdıqlarından şikayətlənirlər

Artıq 2 ildir ki, ölkədə istehlakçılar aldıqları bəzi mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) müəyyən hissəsini geri alırlar.

2020-ci ildə Vergi Məcəlləsinin təsdiq edilmiş yeni qaydasına əsasən, ticarət və ya iaşə obyektlərindən alınmış mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) bir hissəsi istehlakçılara geri qaytarılır. Qaydalara görə, qaytarılan ƏDV nağdsız ödənişlər üzrə 15 faiz, nağd ödənişlər üzrə isə 10 faiz təşkil edir.

#### ƏDV çeki niyə verilmir?

Lakin qaydaların tətbiqindən 2 il ötməsinə, "ƏDV-ni geri al" portalından qeydiyyatdan keçən vətəndaşların çekləri əldə etmək maraqlarının artmasına baxmayaraq, bu sahədə hələ də problemlər mövcuddur.

Ardı 4-cü səh.

## İrəvanda növbəti bahalaşma başlayıb

### Əhali Paşinyanı Ermənistanı dilənçilər ölkəsinə çevirməkdə günahlandırır

**Hazırda Ermənistanda sosial-iqtisadi sahədə vəziyyətin daha da ağırlaşdığı, insanların maddi rifah halının getdikcə pisləşdiyi müşahidə edilir.**

Çünki ötən illər ərzində iqtisadi inkişaf üçün hansısa real bazis yaradılmayıb, əksinə, olub-qalan da hakimiyyətin səriştəsiz siyasəti nəticəsində tam dağıdılıb. Elə bu səbəbdən ölkədə vəziyyət daha da pisləşir.

Müharibədəki məğlubiyyət fonunda Ermənistanda iqtisadi göstəricilər daha da gərginləşib. Nəticədə yoxsulluq səviyyəsi bir qədər də artıb. İqtisadi tənəzzülün davam etməsi nəticəsində hakimiyyətin reytinqi də sıfra yaxınlaşır. Bildirilir ki, hazırda Ermənistanda adambaşına düşən gəlir bəzi ölkələrlə müqayisədə təxminən 16 dəfə, məhsuldarlıq isə 9 dəfə aşağıdır.

Ardı 4-cü səh.

# Təkbətək görüş

## İlham Əliyev Şarl Mişelin sülh naminə səylərini yüksək qiymətləndirir





**Aprelin 6-da Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında post-münaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirdi və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə bu gün keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə etdi.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd etdi. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirdi.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edildi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional təhlükəsizliyə dair fikir mübadiləsi aparıldı.



# Mövqeyimiz dəyişməzdir

### Azərbaycanın Müzəffər Ali Baş Komandanı İlham Əliyev bunu Brüsseldən dünyaya bir daha bəyan etdi

**Aprelin 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olub.**

## Avropa İttifaqı Şurasının prezidenti Brüsseldə keçirilən üçtərəfli görüşün yekunları ilə bağlı jurnalistlərin suallarını cavablandırıb

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel aprelin 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilən üçtərəfli görüşün yekunları ilə bağlı jurnalistlərə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

Jurnalistləri salamlayan Avropa İttifaqı Şurasının prezidenti **Şarl Mişel** dedi: Axşamınız xeyir. Elə indicə biz Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla gözəl və çox səmərəli görüş keçirdik. Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün olduqca mühümdür. Ona görə də biz bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləməklə məşğuluq və bu gecə böyük bir irəliləyişə nail olduq. Bu isə o deməkdir ki, biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik. Biz həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq.

**- Cənab prezident, sizcə, sülh sazişinin imzalanması nə qədər çəkər?**

- Bunu proqnozlaşdırmaq çətindir. Amma dekabrda Brüsseldə hər iki liderlə ilk şəxsi görüş zamanı mən hiss etdim ki, maraqlı bir addım atıldı, tərəflər bir-birini dinləməyə və bir-birini narahat edən məsələləri, həmçinin prioritetləri, hər iki tərəf üçün həssas olan məsələləri daha yaxşı anlamağa meyilli idilər. Bu, birinci vacib element idi. Bu arada mənim hər iki liderlə müntəzəm telefon danışıqlarım olub. Biz buaxşamkı görüşə çox hazırlaşmışıq. Biz buna vaxt ayırdıq. Bilirsiniz ki, nahardan əvvəl mənim hər iki liderlə ikitərəfli görüşüm oldu. Səmimi desəm, düşünürəm ki, biz çox gərgin çalışırıq, irəliləyiş var. Hər iki tərəfdə olan çağırışları və çətinlikləri gözardına vurmuram. Lakin hesab edirəm ki, irəliləyişə nail olmaq, əməkdaşlıq etmək, prioritetləri, birlikdə ata biləcəyimiz konkret addımları müəyyənləşdirmək üçün ortaq iradə var.

**- Cənab prezident, deyə bilərik ki, biz sülh sazişinə yaxınlaşırıq?**

- Əminəm ki, bu gecə biz düzgün istiqamətdə mühüm bir addım atdıq. Əlbəttə, bu, hər şeyin həll olunduğu anlamına gəlmir. Lakin bu o deməkdir ki, biz irəliləyişə nail olmuşuq. Çünki biz ortaq məxrəcə gəlmək, bütün regionda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün ümid edirəm ki, mümkün qədər tez bir zamanda dayanıqlı razılaşma əldə etmək məqsədilə vacib elementlərin nədən ibarət olduğunu daha yaxşı başa düşürük. Təşəkkür edirəm.

**- Proses başlayıbmı?**

- Proses bu gecə başlayıb.



## Baş nazir Əli Əsədov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə cari ildə Azərbaycan ilə Dünya Bankı arasında tərəfdaşlığın qurulmasının 30 illiyinin tamam olduğu vurğulanaraq ötən müddət ərzində müxtəlif istiqamətlərdə birgə layihələrin uğurla həyata keçirildiyi bildirilib.

Azərbaycanda aparılan iqtisadi, struktur və institusional islahatlar, həmçinin iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və rəqabət qabiliyyətliyinin artırılması məqsədilə görülən tədbirlər barədə danışılıb. Dünya Bankının bu istiqamətlərdə Azərbaycana dəstəyi yüksək qiymətləndirilib.

Görüşdə Azərbaycanın inkişaf prioritetləri, Dünya Bankının "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanmasına dəstəyi, Bankın ölkəmizdəki layihə portfeli və işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, həmçinin müxtəlif sahələrdə tərəfdaşlığın perspektivləri ilə bağlı məsələlər geniş müzakirə olunub.



## Milli Məclisin deputatları QDİƏT Parlament Məclisinin komitə iclasında iştirak ediblər

Aprelin 6-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin onlayn formatda 58-ci iclası keçirilib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videokonfransda Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və deputat Ramin Məmmədov, QDİƏT PM-in baş katibi Asəf Hacıyev və digər üzv ölkələrin parlamentariləri iştirak ediblər. QDİƏT PM-in Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin sədri Musa Quliyevin moderatorluq etdiyi iclasda təşkilatın cari işləri və qarşıdakı tədbirləri barədə məlumat verilib, komitənin 57-ci iclasının protokolu təsdiqlənib, növbəti 59-cu iclasının tarixi, yeri və gündəliyi müəyyənləşdirilib.

# YAP Gənclər Birliyinin illik hesabat iclası keçirilib

Aprelin 6-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin illik hesabat iclası keçirilib.







İclasda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov təşkilatın 11.03.2021-11.03.2022-ci il ərzində fəaliyyətinə dair hesabatı təqdim edib. B.İslamov bildirib ki, Partiyanın VII Qurultayında qəbul olunmuş yeni Nizamnaməyə əsasən, YAP Gənclər Birliyi yenidən formalaşdırılıb. Onun sözlərinə görə, ötən bir il ərzində birlik üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Diqqətə çatdırılıb ki, hesabat dövründə YAP Gənclər Birliyinin altı iclası keçirilib, 80-dən çox tədbir və layihə reallaşdırılıb, region gəncləri ilə görüşlər təşkil olunub. Eyni zamanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə "Davamlı İnkişaf Məktəbi" layihəsi, 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan olunması ilə əlaqədar Ümumrespublika Xəmsə Festivalı, "Viki Klub" layihəsi keçirilən tədbirlər sırasındadır. Bundan əlavə, 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Prezident İlham Əliyevin gənclərlə keçirdiyi görüşdə YAP Gənclər Birliyinin üzvləri də iştirak ediblər. Hesabat dövründə 44 günlük Vətən müharibəsinə, Azərbaycan həqiqətlərinin və Ermənistanın xalqımıza qarşı törətdiyi cinayətlərin dünya ictimaiyyətinə çatdırılması işinə həsr olunmuş tədbirlər də reallaşdırıb, bu yöndə sosial şəbəkələrdə fəal iş aparılıb.

YAP Gənclər Birliyinin beynəlxalq əlaqələrinin inkişaf etdiyini deyən B.İslamov hesabat dövründə Türkiyə, Qazaxıstan və Ukraynaya baş tutmuş səfərlər haqqında da məlumat verib. O, birliyin fəaliyyətində Heydər Əliyev ideyalarının və Prezident İlham Əliyevin siyasətinin təbliğ olunmasının əsas yer tutduğunu diqqətə çatdırıb. B.İslamov göstərilən dəstəyə görə partiya rəhbərliyinə təşəkkürünü bildirib.

Daha sonra YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Cəbi Quliyev, birliyin üzvləri Ülviyyə Axundova, Nihad Allahyarlı və YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva çıxış edərək fikir və təkliflərini bildiriblər.

İclasda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov hesabat dövründə partiyanın Gənclər Birliyinin geniş və əhatəli tədbirlər həyata keçirdiyini vurğulayıb. Azərbaycan gənclərinin intellektual potensiala sahib olduğunu deyən Tahir Budaqovun sözlərinə görə, YAP Gənclər Birliyi də məhz bu amil əsasında formalaşdırılıb. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada söz sahibi olan dövlətə çevrilib, artıq ölkəmizin həyatında yeni inkişaf mərhələsi başlayıb. Bu baxımdan YAP qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Bu prosesdə partiyamızın gəncləri də fəal iştirak etməlidir.

Azərbaycanda uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini deyən YAP Sədrinin müavini ölkəmizdə gəncliyin inkişafı üçün bütün imkanların yaradıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, YAP-ın gəncləri bundan sonra da Heydər Əliyev irsinin dərindən öyrənilməsi və təbliği, prezidentimizin siyasətinin fəal təbliğatı, milli maraqlarımızın, milli mənəvi dəyərlərimizin qorunması, vətənpərvərlik hisslərinin aşılanması işində, ölkəmizə qarşı yönəlmiş kampaniyalarla mübarizə çərçivəsində sosial şəbəkələrdə fəallığını daha da gücləndirməlidirlər. Qeyd olunub ki, bu il Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 ili tamam olur, eləcə də ölkəmizdə "Şuşa ili" elan edilib. YAP Gənclər Birliyi bu əlamətdar hadisələrlə bağlı yeni təşəbbüslərlə çıxış etməlidir.

İclasda önəmli təkliflərin irəli sürüldüyünü deyən Tahir Budaqov bildirib ki, YAP Gənclər Birliyinin üzvləri partiya rəhbərliyinin etimadını doğrultmaq üçün fəaliyyətlərini daha da gücləndirməlidirlər. YAP Mərkəzi Aparatının rəhbəri qarşıda dayanan vəzifələrlə bağlı gənclərə tövsiyə və tapşırıqlarını verib.

# Zəfər diplomatiyası

## İlham Əliyev Brüsseldə Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etdi

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilən birgə görüşü bir daha respublikamızın öz milli maraq və mənafelərini qətiyyətlə təmin etdiyini göstərdi. Bu görüşün gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər, əldə olunan razılaşmalar İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə siyasi sferada uğurla davam etdirən Azərbaycanın növbəti diplomatik nailiyyəti oldu.

Bundan bir gün sonra isə Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Brüsseldə Prezident İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri arasında qeyri-formal görüş keçirilib.

Daha bir görüş isə videoformatda baş tutdu. Bu il fevralın 4-də Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüş Vətən müharibəsindəki yeni reallıqlar fonunda bütün proseslərin respublikamızın maraqlarına uyğun cərəyan etdiyini göstərdi.

### Avropa İttifaqı qalib Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür

Bütövlükdə indiyədək keçirilmiş bütün görüşlərin gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər göstəir ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə də inamla davam etdirir. Dünən Brüsseldə keçirilən görüş də bunu bir daha təsdiq etdi. Əvvəlki görüşlərdə olduğu kimi, Prezident İlham Əliyev Brüsseldə növbəti dəfə Azərbaycanın maraq və mənafelərini qətiyyətlə təmin etdi.

Xatırladaq ki, bu görüşdən bir gün əvvəl - aprelin 5-də Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib. Antoni Blinken Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın yüksək önəm verdiyini bildirib. Prezident İlham Əliyev regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlara başlanması, nəqliyyat bağlantıları və kommunikasiyaların qurulması üçün Azərbaycanın irəli sürdüyü təkliflərini və mövqeyini qeyd edib. Dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, Birinci Ermənistan-Azərbaycan müharibəsində itkin düşmüş hesab olunan 3890 nəfər azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsi və kütləvi məzarlıqların yerləri barədə məlumat verilməsinin vacibliyini diqqətə çatdırıb.

Budəfəki görüşdə də Aİ Şurasının prezidenti tərəfindən "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadələrdən istifadə edilmədi. O cümlədən Minsk qrupunun da adı çəkilməyib. Bu da bir daha təsdiq etdi ki, status məsələsi tarixin arxivinə gömülüb və Avropa İttifaqı da Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür.

Bütövlükdə bu görüş bir daha Zəfər diplomatiyasının təntənəsi oldu. Görünən həm də odur ki, Avropa İttifaqı qalib Azərbaycanın regionda yaratdığı yeni reallıqları bölüşür.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dövlət sərhədinin pozulması hallarının qarşısının alınmasına həsr olunmuş birgə taktiki təlim keçirilib

Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planına əsasən "Dövlət sərhədinin pozulması hallarının qarşısının alınması üzrə sərhəd axtarışının təşkili" mövzusunda birgə taktiki təlim keçirilib.







Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin ssenarisinə əsasən sərhəd pozucuları dövlət sərhədini pozaraq Naxçıvan Muxtar Respublikasının ərazisinə keçməyə cəhd edirlər. Sərhəd naryadından daxil olmuş siqnala əsasən sərhəd bölmələrinin şəxsi heyəti "Silaha" komandası ilə qaldırılır. "Həyəcan qrupu" hadisə baş vermiş əraziyə, "Hərbi pərdələyici dəstə" sərhəd naryadları isə dövlət sərhədinin pozulduğu istiqamətdə təyin olunmuş hüdudlar boyu ərazinin qapadılması üçün hərəkət edirlər. Dövlət sərhədinin pozulması əlamətləri aşkar olunduqdan sonra sərhədin mühafizəsi gücləndirilməklə aidiyyəti qurumların müvafiq bölmələri xəbərdar edilir. Sərhəd komendantlığının mobil qrupları və sərhəd zastavalarından cəlb olunmuş axtarış qrupları tərəfindən dövlət sərhədinin pozulduğu istiqamətdə axtarış tədbirləri həyata keçirilir.

Əməliyyat-axtarış tədbirlərinin daha effektli həyata keçirilməsi üçün əməliyyat rayonunda birgə qərargah yaradılır. Axtarış rayonunda sərhəd pozucularının dərinliyə sızmasına imkan verməmək məqsədilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bağlama qrupları ilə birgə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrindən və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsindən ayrılmış qruplar da cəlb edilməklə təyin olunmuş hüdudlar boyu ərazi qapadılır. Birgə fəaliyyət zamanı təcrid edilmiş ərazilərdəki yaşayış məntəqələrində naməlum şəxslər haqqında məlumatların toplanılması məqsədilə əraziyə yaxın yollarda reydlər keçirilir, əməliyyat rayonunun giriş-çıxış yollarında nəzarət məntəqəsi xidməti təşkil olunur. Aparılmış uğurlu axtarış tədbirləri nəticəsində aşkar olunmuş sərhəd pozucuları mühasirəyə alınaraq yaxalanır və sərhəd axtarışı ərazisində fəaliyyət dayandırılaraq rejimə qoyulmuş məhdudiyyətlər aradan qaldırılır.

Təlimin yekununda Naxçıvan Əlahiddə Sərhəd Diviziyası komandirinin birinci müavini - qərargah rəisi polkovnik Muxtar Həmzəyev birgə fəaliyyət nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunduğunu bildirib.

# Xəzər dənizindəki gəmidə səhhəti pisləşən kapitan köməkçisinə tibbi yardım göstərilib

**Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin olunması, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi, xilasetmə tədbirlərinin həyata keçirilməsi davam etdirilir.**



Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, aprelin 6-da saat 00:20 radələrində Dövlət Dəniz və Liman Agentliyinin növbətçi operatoru və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətində İdarəetmə Mərkəzindən DSX-nin Sahil Mühafizəsinin Baş Komanda-Nəzarət Mərkəzinə Lənkəran reydindən Salyan reydi istiqamətində hərəkətdə olan Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məxsus "Əlif Hacıyev" elmi-tədqiqat gəmisinin kapitanının üçüncü köməkçisi, 1992-ci il təvəllüdlü Ramazan Seyfi oğlu Hüseynovun səhhətinin qəflətən pisləşməsi barədə məlumat daxil olub.

Qısa müddət ərzində həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində "Astara" reydində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisinin itisürətli qayığı tərəfindən Salyan Şəhər Təcili Tibbi Yardım Stansiyasının həkimi qeyd olunan əraziyə çatdırılıb.

İlkin tibbi yardımın göstərilməsindən sonra qeyd olunan şəxsin həkim nəzarəti altında DSX-nin Sahil Mühafizəsinin gəmisinə keçirilməsi və sahilə təxliyəsi təmin olunub.

***"Azərbaycan"***

# 5,3 milyon nəfər iqtisadi fəal əhalinin 5 milyonu işlə təmin olunub

## Təkcə pandemiyanın davam etdiyi keçən il ölkə üzrə 69 min yeni iş yeri açılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi tərəfindən həssas qrupdan olan vətəndaşların fərdi təsərrüfatlarının yaradılması proqramı davamlı xarakter alıb. Ötən ay daha 200-dək işsiz şəxs mal və materiallar formasında aktivlərlə təmin edilib ki, onlar özlərinin kiçik bizneslərini qura bilsinlər.**



Agentliyin mütəxəssisləri tərəfindən əvvəlcə bu proqrama cəlb edilənlərin kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqları öyrənilir. Bundan sonra onlar kiçik bizneslərini qurmaq üçün mal və materiallarla təmin edilir və öz bizneslərini idarəetməyə hazır olurlar. Dünya təcrübəsindəki bu üsuldan ölkəmizdə istifadə edilməsi özünü doğruldur. Cari ilin əvvəlindən indiyədək 2500-dən çox işsiz və işaxtaran şəxs bu proqram çərçivəsində kiçik sahibkara çevrilib.

Məlumdur ki, texnika və texnologiyaların inkişafı, onların istehsal və xidmət sahələrində geniş tətbiqi yeni kadrların hazırlanmasını tələb edir. Buna baxmayaraq, Dövlət Məşğulluq Agentliyi ölkədə tələbat olan sadə peşələr üzrə də kadrlar hazırlayır. Ümumiyyətlə, bu qurumun Bakı Peşə Hazırlığı Mərkəzində təşkil edilən kurslarda həm müasir, həm də ənənəvi sahələr üzrə kadrlar hazırlığı davamlı xarakter alıb. Agentlik tərəfindən növbəti dəfə 150-yə yaxın işsiz şəxs peşə hazırlığı kurslarına cəlb edilib. Onlar Peşə Hazırlığı Mərkəzində qənnadçı, şirniyyatçı, dərzi, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, istilik şəbəkəsi avadanlıqlarının təmiri üzrə çilingər, mühafizəçi, ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar peşələrini öyrənirlər. Təlimlər başa çatdıqdan sonra imtahanlardan müvəffəqiyyətlə keçənlər sertifikat almaqla yanaşı, işlə də təmin olunacaqlar.

İqtisadiyyatın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması həmçinin yeni iş yerlərinin açılması deməkdir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən il ölkəmizdə 69 min iş yeri açılıb. Bu iş yerləri iqtisadiyyatın və sosial sferanın müxtəlif sahələrini əhatə edir. Ötən il hüquqi şəxslərin yaratdıqları iş yerlərinin 21,7 faizi tikinti, 18,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 11,2 faizi emal sənayesi, 6,5 faizi peşə, elmi və texniki fəaliyyət üzrə açılıb. Açılan iş yerləri inzibati və yardımçı xidmətlərin göstərilməsi üzrə 5,8, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə 5,6, turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə 4,9, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə 4,6, təhsil üzrə 3,5 faiz təşkil edib. Qalan iş yerləri nəqliyyat və anbar təsərrüfatı, daşınmaz əmlakla əlaqədar əməliyyatlar və digər iqtisadi fəaliyyət növləri üzrə açılıb. Onu da qeyd edək ki, yeni iş yerlərinin 88,8 faizi qeyri-neft sektorunda yaradılıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il martın 1-i vəziyyətinə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 304,6 min nəfərə çatıb. Onlardan 4 milyon 988,9 min nəfərini məşğul əhali təşkil edib. Fevralın 1-nə olan məlumata görə isə, ölkə üzrə muzdla çalışan işçilərin sayı 1 milyon 679,1 min nəfər olub. Bu dövrdə iqtisadiyyatın dövlət sektorunda 901 min, qeyri-dövlət sektorunda 778,1 min nəfər çalışıb. Neft-qaz sektorunda 31,4 min, qeyri neft-qaz sektorunda isə 1 milyon 647,7 min nəfər cəmləşib.

Dövlət məşğulluğu təmin etmək məqsədilə sahibkarlığın inkişafına da dəstək verir. Təsadüfi deyil ki, yeni iş yerlərinin böyük hissəsi qeyri-neft sektorunda yaradılıb. Bu o deməkdir ki, özəl sektorun inkişafı həm də yeni iş yerlərinin açılmasını stimullaşdıran faktordur.

Ölkədə əhalinin məşğulluğunun təmin edilməsinin iki istiqamətinin şahidi oluruq. Birincisi, yeni istehsal və xidmət mərkəzlərinin açılmasını təşviq etməklə məşğulluğun artırılmasıdır. İkincisi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturları vasitəsilə vətəndaşların ictimai ödənişli işlərə cəlb olunmasıdır. Hər iki halda vətəndaşın məşğulluğu təmin olunur ki, bu da onların sosial vəziyyətinin yaxşılaşmasına səbəb olur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi iqtisadi inkişafa və sosial rifaha xidmət edir

*Əvvəli 1-ci səh.*

Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur. Odur ki, korrupsiyaya qarşı mübarizənin davamlı olması, onun qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun təsirli mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət daşıyır. Həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zərurəti ortaya çıxır. Bu sahədə görülən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilir.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakter daşıyır. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilib, yeni baxışlar və vəzifələr müəyyən edilib. Hazırda Azərbaycanda sosial dövlətin yeni modeli formalaşıb və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" da məhz fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir. O eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Qeyd edək ki, Azərbaycanda son illər ərzində əsas strateji hədəflərə çatmaq üçün beynəlxalq miqyasda və ölkə daxilində görülmüş məqsədyönlü, düşünülmüş tədbirlər nəticəsində istər sosial-iqtisadi inkişaf, istərsə də hüquqi-institusional zəmin baxımından əhəmiyyətli irəliləyişə nail olunub. Bununla yanaşı, torpaqlarımızın işğaldan azad edilməsi ölkəmiz qarşısında yeni inkişaf mərhələsi açıb. İndi bu bölgənin inkişafı dövlətin strateji prioritetləri sırasındadır. Korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir.

Bir sözlə, ölkəmizin hazırkı inkişaf mərhələsi korrupsiyaya qarşı mübarizə sahəsində görülməli olan sistem xarakterli tədbirlərin səmərəliliyini və davamlılığını təmin edəcək yeni bir sənədin - "Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planı"nın qəbul edilməsini şərtləndirir. Bu planda əks etdirilmiş kompleks tədbirlərin icrası ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi, şəffaflığın artırılmasına, dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyət etibarilə yaxşılaşdırılmasına, ictimai nəzarətin təşkilində və korrupsiyanın ifşa edilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun artırılmasına xidmət edir.

Beləliklə, dövlət sektorunda idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, yerli özünüidarəetmədə aşkarlığın və ictimaiyyətin iştirakının təmin edilməsi, özəl sektorda beynəlxalq standartlar əsasında antikorrupsiya standartlarının formalaşdırılması, müvafiq istiqamətlərdə qanunverici bazanın mütərəqqi beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi korrupsiyaya qarşı mübarizə sahəsində qarşıya qoyulmuş əsas prioritet istiqamətlər və məqsədlərdir.

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin müvafiq icraçı qurumlar üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

Dövlət başçısının sözügedən sərəncamı ilə Nazirlər Kabinetinə fəaliyyət planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi və bu sənəddən irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya isə tövsiyə olunub ki, fəaliyyət planının icrasının mütəmadi qiymətləndirilməsini təmin etsin. Komissiya eləcə də bu prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi üçün tədbirlər görəcək, fəaliyyət planının həyata keçirilməsi barədə ictimaiyyəti mütəmadi məlumatlandıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bakıda "Run for Art" Beynəlxalq Fotomüsabiqəsinin finalçılarının sərgisi açılıb





Aprelin 6-da Beynəlxalq Muğam Mərkəzində "Run for Art" Beynəlxalq Fotomüsabiqəsinin finalçılarının sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, qurumun baş katibi Azər Əliyev, mədəniyyət naziri Anar Kərimov, gənclər və idman naziri Fərid Qayıbov və İtaliya MOK-un vitse-prezidenti, "Culio Onesti" Fondunun İdarə Heyətinin üzvü, xizəksürmə üzrə keçmiş Olimpiya çempionu Klaudia Cordani iştirak ediblər.

Qeyd edək ki, Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev "Run for Art" Beynəlxalq Fotomüsabiqəsinin münsiflər heyətinin üzvüdür.

Müsabiqə haqqında məlumat verən Klaudia Cordani bildirib ki, "Run for Art" gənc fotoqraflar üçün "Culio Onesti" Fondu tərəfindən hazırlanmış beynəlxalq fotomüsabiqədir. Müsabiqənin məqsədi bədii forma olan fotonun yaradıcı enerjisini və idmanın əzmini, yəni incəsənət və idmanı birləşdirməkdir.

Müsabiqə 18-35 yaşlarında olan dünyanın istənilən ölkəsindən həvəskar və peşəkar fotoqraflar üçün nəzərdə tutulub. Hər müsabiqə üçün 5 fərqli aspektə görə fərqli mövzu təklif edilib. Kateqoriyaların sayı simvolik olaraq 5 olimpiya halqasını ifadə edir. Müsabiqənin final mərhələsinə daxil olan 5 kateqoriyanın hər birində ümumilikdə 40 fotoşəkil üçün, idman yarışında olduğu kimi 8 finalçı seçilib. Fotoşəkillər incəsənət, idman və medianı təmsil edən beynəlxalq münsiflər tərəfindən qiymətləndirilib.

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Mədəniyyət Nazirliyinə tədbiri beynəlxalq səviyyədə təşkil etdiyi üçün təşəkkür edib. Azərbaycan Milli Olimpiya Komitəsinin 30 il bundan əvvəl yarandığını deyən Ç.Hüseynzadə bildirib ki, bu illər ərzində ölkəmizdə güclü olimpiya hərəkatı yaranıb: "Olimpiya tək idman deyil, həm də idmanın təbliğatı deməkdir. Burada təhsil və incəsənət xüsusi yer tutur". O, müsabiqədə qalib gələn iştirakçıları təbrik edib: "Çox şadam ki, qaliblər arasında azərbaycanlı fotoqraflar da var. Sevinirəm ki, xarici ölkələri təmsil edən finalçılar uzaq məsafə qət edib mükafatlandırma mərasimində iştirak edirlər".

Mədəniyyət naziri Anar Kərimov MOK-un 30 il ərzində çox uğurlu, şərəfli yol keçdiyini vurğulayıb. Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılması Ulu Öndərimizin adı ilə bağlıdır. Prezident İlham Əliyev də bu prinsipləri davam etdirir. Komitənın səyləri nəticəsində idmançılarımız Azərbaycan bayrağını yüksəkliklərə qaldırıb və Azərbaycanı idman ölkəsi kimi tanıdıblar.

Azərbaycan idmançılarının mötəbər idman tədbirlərində iştirak etdiyini deyən nazir bildirib ki, komitənin fəaliyyəti nəticəsində idman növləri inkişaf etdirilib, idmançıların beynəlxalq yarışlarda qazandığı qələbələr yeni nəsildə idmana maraq oyadıb.

İdmanla mədəniyyətin birbirilərini tamamladığını söyləyən nazir deyib ki, idman ruhu möhkəmləndirir, mədəniyyət vasitəsilə də mədəni ruh güclənir.

Sonra "Run for Art" Beynəlxalq Fotomüsabiqəsində qalib olan Tetsu Çi-Çinqli (Tayvan), Gökhan Taner (Türkiyə), Maks Danlap (ABŞ), Culia Kasu (Fransa), Ris Beyts (Avstraliya) Nəriman Babayev və Bayram Musayevə (Azərbaycan) hədiyyə və sertifikatlar təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

Sərgi aprelin 16-dək Beynəlxalq Muğam Mərkəzində açıq olacaq.

# Geri qayıtmayan ƏDV

*Əvvəli 1-ci səh.*



Bəzi ticarət və iaşə obyektləri alınan məhsullar üzrə çeki verməkdən yayınır, digərləri rahatlıqla çeki versə də, sistemə yüklənən zaman həmin obyektin ƏDV ödəyicisi olmadığı və ya artıq bu çekin sistemə yükləndiyi ortaya çıxır. "ƏDV-ni geri al" layihəsi əhalinin nağdsız ödənişlər həyata keçirməsi üçün stimullaşdırıcı xarakter daşımasına, kartla ödənişdə qaytarılan ƏDV-nin daha yüksək olmasına baxmayaraq, bəzi iaşə obyektləri nağdsız ödəniş zamanı yalnız bank məlumatı olan çeki alıcıya təqdim edir. ƏDV fiskal kod və ya "QR kod" olan çeki isə özlərində saxlayırlar. Bəzi alıcılar utanaraq ya çeki tələb etmir, bəziləri isə bunu tələb etdikdə satıcı tərəfindən daha qəzəblə qarşılandıqlarını deyirlər.

## Vətəndaşlara 130 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən qəzetimizə bildirilib ki, "ƏDV-ni geri al" sistemində indiyədək 1,6 milyondan artıq istifadəçi qeydiyyatdan keçib, 130 milyon manatdan artıq ƏDV məbləği geri qaytarılıb.

Mövcud qaydalara əsasən, ƏDV-nin müəyyən hissəsinin qaytarılması zamanı bir neçə məqama diqqət yetirilməlidir. İlk növbədə, istehlakçı, yeni alış-veriş edən və ya xidmətdən yararlanan tərəf fiziki şəxs olmalıdır. İkincisi isə, satıcı və ya xidmət göstərən tərəfin ƏDV ödəyicisi olması mütləqdir. Eyni zamanda alınan mal və ya xidmətlər ƏDV-yə cəlb edilməlidir. Digər məqam isə satıcının yeni nəsil kassa aparatlarından (NKA) istifadə etməsidir. ƏDV-nin bir hissəsinin qaytarılması yalnız yeni nəsil kassa aparatlarının tətbiq olunduğu obyektlərdə mümkündür.

Xidmətin məlumatına görə, elektron sistemə daxil edilən çeklər üzrə bir sıra hallarda ƏDV-nin geri qaytarılmasından imtina halları da müşahidə edilir. Vergi Məcəlləsində nəzarət-kassa aparatının çeklərindəki məlumatlarla bağlı konkret tələblər mövcuddur. Yeni fiskal çeklərdə məhsulun adının qeyd edilməməsi, çeklərin ümumi tələblərə uyğun olmaması, məsələn, malın və ya xidmətin adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, o cümlədən ƏDV-nin məbləği, nəzarət-kassa aparatının markası və zavod nömrəsi, aparatın fiskal rejiminin nişanı (əlaməti), malın sürətli məlumat kodu (Quick Response Code) və s. ƏDV-nin geri alınması üçün imtinaya səbəb ola bilər: "Qanunvericiliyə əsasən nağd pul hesablaşmaları aparılan zaman istehlakçıya çek, qəbz, bank çıxarışlarını və digər ciddi hesabat blanklarını təqdim etmək vergi ödəyicisinin vəzifələrinə aid edilib. Eyni zamanda "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinin müddəalarına əsasən, satıcı istehlakçıya mal satarkən ona qəbz, mal, kassa çeki və ya digər yazılı sənəd verməlidir".

## İstehlakçıya çek təqdim edilməlidir

Dövlət Vergi Xidmətindən bildirilir ki, NKA tətbiq edilməsi nəzərdə tutulan sahələrdə təqdim olunan mala görə alıcıya nəzarət kassa-aparatının çeki verilməlidir.

Nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli çekin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə təqdiminə, həmçinin POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə onların quraşdırılmaması və terminal quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə görə maliyyə sanksiyası nəzərdə tutulur.

Vergi ödəyicisinə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1000 manat məbləğində, ikinci dəfə yol verildikdə 3000 manat, təqvim ili ərzində belə hallara üç və daha çox yol verildikdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir: "Belə halları müşahidə edən alıcılar vergi qanunvericiliyinin pozulması faktları barədə ətraflı məlumatla, qeyri-anonim olaraq Dövlət Vergi Xidmətinin saytının "Müraciətlər" bölməsinin "Dövlət Vergi Xidmətinə müraciət" alt bölməsinə və ya vergi ödəyiciləri xidmət mərkəzlərinə müraciət edə bilərlər".

Vergi orqanları vergi ödəyicilərinin vergidən yayınması və vergi qanunvericiliyinin pozulması faktları barədə şəxslərdən müraciət qəbul etdikdə müraciətdə göstərilən faktları həmin vergi ödəyicilərində keçiriləcək növbəti operativ vergi nəzarəti tədbiri və ya növbəti səyyar vergi yoxlaması zamanı araşdırır. Vergi nəzarəti başa çatdıqdan sonra nəticələri barədə müraciət edən şəxslərə məlumat verilir.

## Alkoqollu içkilər və tütün məmulatlarının alışına görə ƏDV geri qaytarılmır

2022-ci il yanvarın 1-dən etibarən tibbi xidmətlər sahəsində dövriyyələrin şəffaflaşdırılması və bu prosesdə vətəndaşların birbaşa iştirakı məqsədi ilə burada da "ƏDV-ni geri al sistemi" tətbiq edilir.

Alkoqollu içkilər və tütün məmulatlarının əhalinin sağlamlığına mənfi təsir göstərən zərərli məhsullar olduğunu nəzərə alaraq bu məhsullar üzrə ƏDV-nin geri qaytarılması məqsədəmüvafiq hesab edilməyib. 2022-ci il yanvarın 1-dən avtomobillərin, 2022-ci il oktyabrın 1-dən isə alkoqollu içkilərin və tütün məmulatlarının alışına görə ödənilən ƏDV geri qaytarılmır.

## ƏDV-nin qaytarılmasında əsas problemlər hansılardır?

İqtisadçı ekspert Əkrəm Həsənov son zamanlar bu sahədə olan problemləri diqqətə çəkib. O, çekin alıcı tərəfindən sistemə vurulan zaman artıq istifadə edildiyi, artıq sistemə vurulduğu halları ilə qarşılaşdığını qeyd edib. Bu da onu göstərir ki, həmin ticarət obyektinin işçiləri həmin çekdən istifadə edib: "Bu halla həm özüm, həm də tanışlarım qarşılaşıblar. Həmin çekin məlumatlarının ticarət obyektində olub-olmadığını da soruşmuşam. Qeyd ediblər ki, alıcıya təqdim edilən çekdəki məlumatlar ticarət obyektlərində də olur. Apteklərdə belə hallar daha çox olur, işçilər istehlakçıya təqdim etdikləri çeki özləri sistemə vururlar. Belə halda vergi orqanlarına şikayət etmək lazımdır".

Əkrəm Həsənovun sözlərinə görə, son zamanlar sahibkarlar tərəfindən vergi ödəməkdən yayınma halları əvvəlki dövrlə müqayisədə azalıb. İndi şəffaflaşma prosesi gedir. Bütövlükdə dünyanın istənilən ölkəsində sahibkarlar vergidən yayınmağa çalışırlar. Dövlətin işi isə belə halların qarşısını inzibati yollarla almaqdır.

İqtisadçının fikrincə, qaytarılan ƏDV faizinin artırılmasına ehtiyac yoxdur: "Əksər vətəndaşlar "ƏDV-ni geri al" sistemindən istifadə edirlər. Geri qaytarılan ƏDV-ni faizi hamı üçün vacibdir. Hazırda əsas problem çekin alıcıdan əvvəl başqası tərəfindən istifadə olunması ilə bağlıdır".

## Qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var

Əkrəm Həsənov deyir ki, belə problemlərin aradan qaldırılması üçün qanunvericiliyin təkmilləşdirilməsi lazımdır: "Çeki vuran 1-2 manat ƏDV-dən istifadə olunduğunu görüb həmin ticarət obyektindən şikayət edəsi, məhkəməyə verəsi deyil. Elə etmək lazımdır ki, həmin ticarət obyektləri alıcıya təqdim etdikləri çekdən istifadə edə, məlumatları görə bilməsin. Bu halda şikayətə də ehtiyac qalmaz".

Ekspert vurğulayıb ki, dövriyyəsi 200 min manatı keçməyən obyektlər, bir qayda olaraq, əlavə dəyər vergisinin ödəyicisi deyillər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Havanın çirklənməsi hər il 7 milyon insanı öldürür

## BMT və ÜST ölkələri iqlim dəyişikliyi ilə bağlı ciddi tədbirlər görməyə çağırırlar

İqlim dəyişikliyi üzrə hökumətlərarası ekspertlər qrupu (İDHEQ, IPCC) altıncı qiymətləndirmə hesabatının üçüncü cildini dərc edib. 2800 səhifəlik sənəddə istixana qazlarının azaldılması üzrə tədbirlər təhlil edilir. BMT ekspertləri təcili olaraq karbon-neytral enerji mənbələrinin xeyrinə mədən yanacağından imtina etməyi tövsiyə edirlər.



BMT-nin baş katibi Antoniu Quterrişin dediyinə əsasən, qlobal istiləşmə ilə bağlı vəziyyətin hazırkı inkişafı zamanı Paris razılaşmasında müəyyənləşdirilmiş 1,5 dərəcə selsi göstəricisi iki dəfədən çox yüksələcək: "Bununla bağlı bəzi dövlət və müəssisələrin başçıları bir şey deyirlər, amma tamam başqa işlər görürlər. Açığını deyəcəyəm, onlar yalan danışırlar. Nəticələr fəlakətli olacaq, tez hərəkət etmək lazımdır".

Baş katib Cenevrədə keçirilən təqdimat zamanı istehsal və həyat tərzinin prinsiplərinə yenidən baxılmasının vacibliyini də vurğulayıb: "Məsələn, mənzillərin termik izolyasiyasını yaxşılaşdırmaq, təyyarələrdə daha az uçmaq və ət istehlakını azaltmaq təklif olunur".

İDHEQ işçi qrupunun həmsədri professor Cim Skea planetin xilası barədə danışıb: "Əsas fikri çatdırmaq bizim üçün əhəmiyyətlidir. İnsanın hərəkətləri bizi iqlim böhranına gətirib çıxardı, amma məhz insan planeti xilas edə bilər. Bizim hesabat ümid vermək üçün nəzərdə tutulub. Hər şey itirilmiş deyil, vəziyyəti dəyişdirmək üçün real imkanlar var".

Parisdə razılaşdırılmış 1,5 C dərəcəlik temperaturu saxlamağa nail olmaq üçün bəşəriyyət artıq bu onillikdə qlobal tullantıları 45 faiz azaltmalıdır. Bununla yanaşı, iqlim ilə bağlı mövcud öhdəliklər emissiyaların həcminin aşağı düşməyəcəyi, əvəzində 14 faiz artacağı anlamına gəlir.

BMT baş katibinin dediyinə görə, iqlimin müdafiə hərəkatının fəal iştirakçıları bəzən təhlükəli radikal kimi təsvir olunur. Əslində, mədən yanacağının istehsalını artıran ölkələr həqiqətən təhlükəli radikallardır. Mədən yanacağının hasilatı ilə bağlı yeni infrastruktur obyektlərinə investisiya qoyuluşları mənəvi və iqtisadi axmaqlıqdır".

Gündəliyin kəskin məsələsi ekoloji siyasətin maliyyələşdirilməsidir. Qlobal istiləşmənin 1,5 C çərçivəsində saxlanması üçün yalnız elektroenergetika sektoruna 2023-cü ildən 2052-ci ilə qədər ildə 2300 milyard dollar investisiya tələb olunur.

Son məlumata əsasən, dünya sakinlərinin 99 faizi çirklənmə səviyyəsi Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən təsdiqlənmiş normaları üstələyən və insan sağlamlığına təhlükə yaradan hava ilə nəfəs alır. Hazırda hava keyfiyyətinin monitorinqi 115-dən çox ölkənin 6 mindən artıq şəhərində aparılır. ÜST-ün Ətraf mühit, iqlim dəyişməsi və sağlamlıq departamentinin direktoru Mariya Neyra bildirib ki, havanın çirklənməsi səbəbindən hər il 7 milyon insan həyatını itirir. Halbuki onların ölümünün, eləcə də saysız-hesabsız xəstəliklərin qarşısını almaq olardı.

Bir çox hava çirkləndiricilərinin tərkibi aşağı səviyyədə olsa belə, sağlamlığa əhəmiyyətli dərəcədə ziyan vurur. Bərk hissəciklər ağciyərlərə dərindən nüfuz edə bilir və ürək-damar, tənəffüs sisteminə təsir edərək qan dövranı sisteminə daxil olur. Alimlər hesab edirlər ki, bərk hissəciklər bir sıra başqa orqanlara da təsir edir. Havadakı azot dioksidi tənəffüs xəstəliklərinə, məsələn, astmaya səbəb olur.

"İqlim mühafizəsi ilə bağlı vədlər və planlar hazırda real hərəkətlərə çevrilməlidir", - deyə Quterriş bildirib. Onun fikrincə, planetin resurslarını məhv etməyi dayandırmağın və bərpaolunan enerji mənbələrinə vəsait yatırmağa başlamağın vaxtıdır. Baş katib hesab edir ki, qəzadan qaçmaq üçün hökumətlər tərəfindən yalnız xaricdə deyil, həm də öz ölkələrində kömür hasilatının maliyyələşdirilməsi dayandırılmalıdır. İqlim müdafiəsi koalisiyaları "yaşıl" islahatlar həyata keçirən və bazar iqtisadiyyatı formalaşdıran ölkələri dəstəkləməlidir. Meşələri və digər ekosistemləri qorumaq və metan tullantılarının azaldılmasında irəliləyiş əldə etmək lazımdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# İrəvanda növbəti bahalaşma başlayıb

## Əhali Paşinyanı Ermənistanı dilənçilər ölkəsinə çevirməkdə günahlandırır

*Əvvəli 1-ci səh.*

Ərzaq təhlükəsizliyi ilə bağlı isə heç bir tədbir görülmür. Uzun illərdir ki, aqrar sektorda böhran hökm sürür. Bu sahədə islahatlara başlamaq üçün heç bir təşəbbüs göstərilmir.

Ölkədə qazın qiyməti ilə bağlı yeni tariflər artıq qüvvədədir. Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasının qərarına əsasən, aprelin 1-dən əhali üçün qazın qiyməti 4,7 dram artıb. 1 kubun qiyməti 139 dramdan 143,7 drama qalxıb. Digər istehlakçılar üçün min kubmetrə görə qiymət artımı təxminən 10 dollar təşkil edir. Böyük istehlakçılar əvvəlki 255,91 əvəzinə 265,81 dollar ödəyəcəklər. İstixana emalı şirkətləri üçün bu rəqəm 233,9 dollar olub ki, bu da əvvəlki qiymətdən təxminən 10 dollar bahadır.

Əhalinin istehlak etdiyi qazın qiyməti də artacaq. Bu ölkədə qaz istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyərinin 60-70 faizini təşkil edir. Hazırda tariflərin artımı inflyasiyadan yayınmağı, demək olar ki, qaçılmaz edir. Bu xüsusilə rəqabət imkanları zəif olan kiçik istixana təsərrüfatları üçün problem yaradır.

"Lragir" qəzeti yazır ki, qazın qiymətinin artması kənd təsərrüfatı məhsullarının da bahalaşmasına səbəb olacaq. Bildirilir ki, bunların fonunda xərclər artacaq ki, bu da əmtəə qiymətlərinin bahalaşmasına səbəb olacaq. Bu həm də istehsalçılar üçün daxili və xarici bazarlarda əlavə rəqabət çətinlikləri yaradacaq: "Ermənistanın emal sənayesinin məhsullarının tədarükü üçün əsas bazar Rusiyadır. Rusiya bazarında rublun son devalvasiyası, iqtisadi gerilik, istehlakçıların ödəmə qabiliyyəti tələbinin azalması səbəbindən ermənilər artıq satış problemi ilə üzləşiblər. Qazın bahalaşmasının diktə etdiyi qiymət artımı həmin problemləri daha da artıracaq".

Yeni tariflər qüvvəyə mindikdən dərhal sonra sıxılmış təbii qazın qiyməti qalxıb. Yanacaqdoldurma məntəqələrində mühərrik qazının qiyməti 7-8 faiz artıb. Buna görə də sərnişindaşıma sahəsində qiymət artımı müşahidə olunub. Ekspertlər hesab edirlər ki, bu hələ başlanğıcdır. Növbəti zərbə ictimai həyatın bir çox sahələrinə dəyəcək və bu, zəncirvari şəkildə yayılacaq.

Bütün bunların fonunda Ermənistanda istehlak mallarının bahalaşmasını bir neçə həftədir ki, qızğın şəkildə müzakirə edirlər. "4rd.am" saytı İrəvanda yaşamaq, yaxşı və çox yaxşı yaşayış üçün nə qədər pul lazım olduğunu öyrənmək məqsədilə beş mindən yuxarı sakin arasında sorğu aparıb. Sorğunun nəticələrinə əsasən, yaxşı yaşayış üçün bir nəfərə ayda ortalama 347 234 dram və ya 723 dollar, çox yaxşı yaşayış üçün 655 060 dram və yaxud 1363 dollar, birtəhər keçinmək üçün 120 523 dram və ya 251 dollar lazımdır. Halbuki son rəsmi statistik məlumatlara görə, ölkədə minimum əməkhaqqı 68 min dram təşkil edir. Deməli, indiki şərtlər daxilində Ermənistanda birtəhər dolanmaq da mümkün deyil. Gündəlik istehlak mallarının bahalaşması isə vəziyyəti daha da çətinləşdirir.

Bütün bunlar Ermənistanda vəziyyətin nə dərəcədə ağır olduğunu aydın şəkildə nümayiş etdirir. Bu ölkəni qarşıdakı dövr ərzində daha böyük xaos gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



## Şuşada yamac paraşütündən uçuş - son 30 ildə ilk dəfə



**"Şuşa ili" çərçivəsində Şuşa şəhərində son 30 ildə ilk dəfə yamac paraşütündən (paraplan) uçuş həyata keçirilib.**

AZƏRTAC xəbər verir ki, bu barədə videonu Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov öz "Tviter" hesabında paylaşıb. Uçuş şəhərin ən yüksək nöqtələrindən biri sayılan Qızıl Qaya massivindən (Teleqüllə ərazisi) 1400 metr hündürlükdən yerinə yetirilib.

Professional yamac paraşütü pilotu olan Fərid Məmmədov tərəfindən reallaşdırılan uçuş zamanı Şuşa səmasını qələbə rəmzimiz olan Azərbaycan bayrağı bəzəyib. Xatırladaq ki, dünya paroplan xəritəsində yamac paraşütü üçün Qarabağda yeganə uçuş məkanı Şuşa şəhəri göstərilib.

Uçuş gələcəkdə ekoturizm məkanına çevrilməsi nəzərdə tutulan Daşaltı kəndi istiqamətində olub.

## Kəngərlidə keçirilən əmək yarmarkasında 100-dən çox boş iş yeri təklif olunub

Muxtar respublikada aprel ayında ilk əmək yarmarkası Kəngərli rayonunda təşkil olunub. AZƏRTAC xəbər verir ki, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 19 müəssisədən 107 boş iş yeri təqdim edilib.

Nəticədə 32 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 4 nəfərin özünüməşğulluq proqramına, 3 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyat aparılıb.

Qeyd edək ki, muxtar respublikada işaxtaran şəxslərin məşğulluğunun təmin olunması istiqamətində əmək yarmarkalarının təşkili diqqət mərkəzində saxlanılır. Əmək bazarına çıxışının dəstəklənməsi üçün yarmarkalarda vakant iş yerləri işaxtaran vətəndaşlara təklif olunur və onlara bu iş yerlərinə göndərişlər verilir. Peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər isə bu tədbirlər çərçivəsində peşə hazırlığına cəlb olunurlar. Əmək yarmarkalarında vətəndaşların ödənişli ictimai iş yerlərinə, özünüməşğulluq proqramına və müvafiq peşə kurslarına cəlb olunması üçün qeydiyyatı da aparılır. Bütün bunlar məşğulluğun inkişafına mühüm töhfə verir.

# Qubanın qonaq-qaralı günləri başlayır

## Rayon yeni turizm mövsümünü necə qarşılayır



**Zəngin flora və faunaya, əsrarəngiz təbiətə malik Quba bütün dövrlərdə yerli və xarici qonaqların maraq göstərdiyi sevimli məkan olub. Paytaxtdan təxminən 150 kilometrlik məsafədə yerləşməsi, üstəlik hələ sovet dövründə normal turizm infrastrukturuna malik olması Qubanı həmişə Azərbaycanın digər turizm regionları ilə müqayisədə üstün mövqeyə çıxarıb. Günü bu gün də fürsət düşən kimi şəhərlərin səs-küyündən uzaqlaşmaq istəyənlər ilk növbədə Qubaya üz tuturlar.**

Quba həm də qədim tarix-mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə məşhurdur. Bu baxımdan tarix, eləcə də xalçaçılıq, misgərlik, ümumiyyətlə, qədim peşələrlə maraqlanan səyahət həvəskarları da burada istədiklərini tapırlar. O üzdən Şahdağın ətəklərində və Qudyalçayın sahilində qərar tutan Quba ilin bütün fəsillərində qonaq-qaralı olur. Niyə də olmasın. Hər fəsildə gəl-gəl deyən dağ və dərələr, tarixi qədim dövrlərə gedib çıxan yaşayış məskənləri, müasir turizm infrastrukturu bura yolu düşənləri ovsunlayır, onları təkrar-təkrar bu füsunkar diyara qayıtmağa məcbur edir. Quba Olimpiya İdman Kompleksi, SPA mərkəzləri, Xınalıq kəndi, gündüşməyən meşələr, vahiməli dağ çayları, təkrarsız Quba mətbəxi, qədim xalçaçılıq sənətinin inciləri - bunları təkrar-təkrar görməkdən, dadmaqdan kim bezər ki...

Qubada turistlərin əsas marşrutlarından biri Xınalıq istiqamətinədir. Xınalığın tarixi, indiyədək qədim yaşayış məskəni kimi qalması bu məkana marağı artıran əsas şərtlərdəndir. Xınalıqda kənd evlərində, çadırlarda və təbiətin qoynunda istirahət edən insanlarla hər zaman rastlaşmaq mümkündür. Haput, Qrız, Cek, Afurca, Gültəpə və digər kəndlərə üz tutan turistləri də maraqlı istirahət gözləyir. İsti yay günlərində iri qayaların, daş parçalarının yaxınlığında dincələn qonaqların çoxu isə romantik duyğulara üstünlük verənlərdir. Bu yerlərdəki baş gicəlləndirən dərin dərələrə, keçilməz yarğanlara vurulmamaq mümkün deyil.

Ümumiyyətlə, Qubada kənd turizmi ən çox yayılan turizm növlərindən biridir. İlin bütün fəsillərində rayonun kəndləri, xüsusilə Nügədi, Təngaltı, Afurca, Qəçrəş minlərlə turistin dincəldiyi məkanlardır. Azərbaycanın elə bir rayonu yoxdur ki, oradan Qubaya turist marşrutları təşkil edilməsin. Yerli turistlərlə yanaşı, müxtəlif ölkələrdən gələn qonaqlar da tez-tez Qubanın kəndlərinə üz tutur, bu yerlərin təbiətinin və mətbəxinin ləzzətini çıxarırlar.

Heyif ki, səfalı Möhüc, Tülər, Gültəpə, Yenikənd kimi dağ kəndlərinə normal yol yoxdur. Olsaydı, həmin kəndlərin əsrarəngiz təbiəti də qonaqların zövq aldığı ünvanlar sırasına qoşulardı. Xüsusən payızqış aylarında digər ərazilər qar görməyəndə həmin kəndlərdə əsl "ağ fəsil" yaşanır. Qar arzulu qonaqlar üçün bundan yaxşı sürpriz tapmaq mümkün deyil.

Son illərədək rayonun istirahət mərkəzlərində çalışanlar arasında mütəxəssislər azlıq təşkil edirdi ki, bu da turistlərin qəbulunda, xidmətdə özünü açıq-aydın göstərirdi. Narazı turist isə bəzən bir istirahət yerinə görə bütünlükdə ərazini dəyişir. Artıq problem aradan qaldırılıb. Rayonda bu sahədə çalışanlar vaxtaşırı xüsusi kurslarda iştirak edir, təcrübələrini artırırlar. Çünki bu gün istirahət mərkəzlərinin təkcə xarici görkəmi deyil, daxili xidmətləri də müasir tələblərə cavab verməlidir.

Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin iştirakçıları da çox zaman gəzməyə məhz Qubanı seçirlər. Böyük idman yarışları, beynəlxalq forumların iştirakçıları, rəsmi qonaqlar burada istirahətlə yanaşı, rayonun dünənini və bugününü özündə yaşadan tarix-diyarşünaslıq və xalça muzeylərində olur, Quba Memorial Soyqırımı Kompleksini ziyarət edir. Təsadüfi deyil ki, soyqırımı kompleksini bu günədək ziyarət edənlərin üçdənikisi turistlərin payına düşür.

Qubada azsaylı xalqların nümayəndələri yaşayır. Onların tarixi və mədəniyyəti Qubanın tarix və mədəniyyətinin tərkib hissəsidir. Tat, yəhudi, ləzgi, Ahıska türklərinin mədəniyyətləri həm də turizm sektoru üçün yeni imkan açıb.

Dövrümüz texnologiyalar əsridir. Turizm səfərləri daha çox pul və sərfiyyat məsələləri üzərində qurulur. Yəni turist öz büdcəsinə görə hərəkət edir. Bu baxımdan səfəröncəsi, məsələn, fransalı ailə internet vasitəsilə getmək istədiyi yeri araşdırır. Xızı, Quba, Qusar və digər istirahət zonaları barədə heç bir informasiya tapmayan turist yalnız ekranda tapdığı məkana üz tutur. Odur ki, respublikamızın sayılıb-seçilən istirahət mərkəzlərinin öz məlumat bazası olmalıdır. Hazırda Qubada bu istiqamətdə ciddi işlər aparılır. Artıq "Məstərgah", "Cənnət bağı" istirahət mərkəzlərinin, "Şane" hotelin öz saytları var.

Qubanın dağətəyi kəndlərində geniş yayılan turizm növü çadırdır. Çadır turizmini avropalılar daha çox sevirlər. Şəxsi maşınlarında səyahətə çıxanlar istədikləri yerlərdə gecələməyə üstünlik verirlər. Belə ərazilərdə olan turistlər həm də yaxınlıqda yaşayan insanlarla təmasda olurlar.

Baharın gəlişi turizm sektorunu xeyli canlandırıb. Xüsusən yazın əvvəlində yağan qar Qubaya turist axınına səbəb oldu. Bayram günlərində də rayonun bütün istirahət mərkəzləri turistlərlə doldu. Qarşıda isə isti günlər gəlir. Yəqin ki, bəzi problemləri dəf etməklə Quba öz sərin qucağını turistlərin üzünə bu dəfə də geniş açacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Göygöldə alman irsi

## Bu irsin qorunması xalqımızın və dövlətimizin tolerantlığının əyani nümunəsidir

Göygöl rayonuna daxil olanda ilk olaraq diqqəti sıra ilə düzülmüş çox da hündür olmayan evlər çəkir. Bir-birinə paralel şəkildə salınmış küçələrdəki qırmızı kirəmitli evlərin hamısı bir-birinə oxşayır. Evlərin hündürlüyü qədər olan dam örtükləri, eləcə də binaların fasad hissəsinin eyni ornamentlərlə bəzədilməsi səliqə ilə salınmış küçələrə xüsusi yaraşıq verir.

Almanların buradan köçürülməsindən uzun müddət keçməsinə baxmayaraq, bu evlər hələ də öz görkəmini itirməmişdir. Əksinə, təmir işləri aparılaraq onlara ikinci həyat veilmişdir. İndi əsaslı şəkildə yenidən qurulan, təmir və bərpa olunan küçələri, park və xiyabanları gəzdikcə, almanların milli arxitektura elementlərini seyr etdikcə bir daha xarici qonaqların, xüsusən də almaniyalı turistlərin bu yerlərə vurğunluğunun səbəbini anlayırsan.

Pandemiya başlayanacan hər il yüzlərlə alman ata-babasının vaxtilə sürgün olunduğu bu yerlərə gəlməyə böyük maraq göstərirdi. Onlar hər gəlişlərində alman irsinə göstərilən diqqətlə rastlaşır və bütün bunlara görə Azərbaycan dövlətinə minnətdarlıq edirdilər. Doğrudur, indi bu səfərlər müvəqqəti olaraq azalıb. Lakin Göygöldə alman irsinə göstərilən qayğıkeşlik azalmayıb.

Almanların bu əraziyə köçmələrinin tarixi 19-cu əsrin əvvəllərinə təsadüf edir. Belə ki, 1818-ci ildə Vyutenberq knyazlığından mühacir kimi Azərbaycana köçürülən almanların 124 ailəsi burda-Helenondorf şəhərində (indiki Göygöldə) məskunlaşmışdır. Qısa vaxt ərzində burada 6 küçə salınmış və bu küçələrdə 600-ə qədər ev tikilmişdir. Almanlar burada, əsasən, maldarlıq, əkinçilik və üzümçülüklə məşğul olmuşlar. 1860-cı ildə Fohrer qardaşları Azərbaycanda ilk dəfə olaraq burada şərabçılıq zavodu tikmişlər. Bundan sonra qardaşlar pivə zavodu inşa etdirmişlər ki, burada da bir neçə çeşiddə alkoqollu içkilər istehsal edilmişdir. 1912-ci ildə Fohrer qardaşları Gəncə çayı üzərində 4 mərtəbəli su dəyirmanı tikdirmişlər. Eləcə də 13 kilometr məsafədən, Köşkü kəndi ilə Üçbulaq kəndi arasında yerləşən meşədəki bulaqlardan qəsəbəyə su çəkdirmişlər. Ən nəhayət, bölgədə ilk su-elektrik stansiyası tikdirmişlər ki, bununla da şəhərdə sənayeni inkişaf etdirməyə başlamışlar.

Qeyd edək ki, almanlar burada yaşadıqları dövrdə yerli əhali ilə çox yaxşı ünsiyyət qurmuş, müxtəlif infrastruktur layihələri həyata keçirmişlər. Öz dini inanclarını qoruyub saxlayan almanlar 1854-cü ildə qəsəbədə kilsə də inşa etdirmişlər. Hazırda həmin kilsə əsaslı təmirdən sonra muzeyə çevrilmişdir. Burada 2 mindən çox eksponat nümayiş etdirilir. 6 salondan ibarət olan muzeydə almanlarla bağlı xüsusi bölmə də yaradılmışdır. Həmin bölmədə xarici turistlər vaxtilə Göygöldə yaşamış almanların məişətini, adət-ənənəsini əks etdirən eksponatlarla tanış ola bilirlər. Alman turistlər hər il bura səfər etməklə həm ata-babaları haqqında ətraflı məlumat toplayır, həm də onların qəbirlərini ziyarət edirlər.



Şəhərdə yaşayan almanlardan ən sonuncusu Viktor Klayn olub. O, 1935-ci ildə anadan olmuş, 2007-ci ildə 72 yaşında vəfat etmişdir. Yaşadığı evdə olan bütün əşyalar alman məişətinə aid olduğundan Viktor Klayn onları heç kimə satmamışdır. Onun ölümündən sonra həmin ev və evdəki əşyalar rayon rəhbərliyi tərəfindən qorunmuş, mənzil əsaslı şəkildə təmir olunaraq ev-muzeyi kimi fəaliyyətə başlamış və rayonun turizm marşrutuna salınmışdır.

Ümumiyyətlə, rayonda alman ailələrinin izi olan hər bir tikiliyə hörmətlə yanaşılır. Məsələn, mərkəzi küçələrdən birinə şəhərin təməlini qoyan Hummel qardaşlarının adı verilib. Almanların inşa etdirdiyi Lüteran kilsəsi əsaslı şəkildə təmir olunub. Vaxtilə almanların yaşadıqları evlər əvvəlki görkəminə salınıb ki, bütün bunlar Azərbaycan-alman dostluğuna xidmət etməklə yanaşı, xalqımızın tarixən bütün millətlərə göstərdiyi səmimiyyət və tolerantlıq nümunəsidir.

2005-ci ildən bəri qeyd olunan "Şəhər günü"nün keçirilməsi də artıq ənənəyə çevrilmişdir. Həmin tədbirə vaxtilə şəhərin təməlini qoymuş almanların varisləri də dəvət edilməklə bir daha nəinki almanlara, eləcə də onların irsinə necə hörmətlə yanaşıldığı nümayiş olunur. Pandemiya başlamazdan əvvəl keçirilən sonuncu "Şəhər günü"ndə də Göygölə səfər etmiş onlarca alman unudulmaz günlər yaşamışdır. Gələn qonaqlar arasında Almaniyanın Baden-Vürtemberq Federal Torpağının baş naziri Günter Oettingerin başçılıq etdiyi nümayəndə heyəti şəhərlə tanışlıqdan sonra almanların vaxtilə yaşadıqları Hummel küçəsindəki mədəniyyət və istirahət parkında yerli sakinlərlə görüşüb söhbət etmiş, ata-babalarının həyat tərzi ilə bağlı xatirələrini dinləmişlər. "Şəhər günü" münasibətilə keçirilən böyük bayram tədbirində tarixçi alim, Azərbaycanda alman koloniyalarının tarixini araşdıran Yeva Mariya Aveh və Günter Oettinger çıxış edərək Almaniya-Azərbaycan dostluq qrupunun səmərəli fəaliyyətindən, əsl beynəlmiləl ölkə olan Azərbaycanda bütün millətlər üçün yaradılan bərabərhüquqlu şəraitdən danışmış, burada tolerantlıq mühitinin bütün xalqlara nümunə olduğunu diqqətə çatdırmışlar. Qeyd edilmişdir ki, Azərbaycanda nəinki milli və dini azlıqlara, hətta onların maddi-mədəni irsinə də hörmətlə yanaşılır. O da vurğulanmışdır ki, hazırda dünyanın bir çox ölkələrində azsaylı xalqların əzildiyi, cəmiyyətdən təcrid olunduğu bir vaxtda, Azərbaycan nəinki bu millətlərə, eləcə də onların qoyub getdikləri irsə də qayğıkeşliklə yanaşılır. Vaxtilə Göygöldə məskunlaşmış almanlara məxsus abidələrin bərpa olunaraq qorunması buna misal ola bilər.

Həqiqətən, almanlar yerli əhali ilə çox mehriban və səmimi olmuşlar. Rayon ağsaqqalları söhbət zamanı dedilər ki, onların uşaqlığı həmin alman uşaqları ilə birlikdə keçib və heç vaxt onların arasında ayrı-seçkilik olmayıb. Hətta həmin uşaqlardan alman dilini də mükəmməl öyrəniblər.

Onu da diqqətə çatdıraq ki, 20-ci əsrin əvvəllərində erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri terror hərəkətlərindən almanlar da əziyyət çəkiblər. 1905-ci ildən 1907-ci ilin avqustunadək "Daşnaksütyun" partiyasının Gəncədə yerləşən yerli təşkilatının nümayəndələri burada yaşayan almanları partiyanın xəzinəsinə xərac verməyə məcbur ediblər. Hətta şərab istehsalçıları olan Fohrer qardaşları bu xəracı ödəməkdən imtina etdikləri üçün qətlə yetiriliblər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Sabirabadda pambıq səpininə start verilib

Sabirabad rayonunda pambıq səpininə start verilib. Cari il üçün tarlalarda daha məhsuldar olan "Lazer" və "Orion" toxum sortlarından istifadə edilir.

AZƏRTAC xəbər verir ki, Sabirabad rayonu Zalqarağac kəndində pambıq səpini işləri və qarşıda duran vəzifələrlə bağlı tarla görüşü təşkil olunub. Görüşdə "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin baş direktoru Kamran Nəbizadə, "Azərpambıq ASK" MMC-nin birinci müavini Hüseyn Qafarov, İstehsal və fermerlərlə iş şöbəsinin müdiri İlham Quliyev, aqronomlar və kənd sakinləri iştirak ediblər.

Görüş zamanı görülən işlərlə tanışlıq olub və səpindən sonra sahəyə baxış keçirilib. Sabirabad Pambıq İstehsalı və Tədarükü məntəqəsinin direktoru Elbrus Məmmədbəyov bildirib ki, cari il üzrə "Azərpambıq ASK" MMC vasitəsilə təkcə Sabirabad rayonunda 903 fermerlə müqavilə bağlanılıb və 3070 hektar sahədə pambıq əkilməsi planlaşdırılır.

Son vaxtlar pambıqçılığa olan dövlət dəstəyi fermerlərin də bu sahəyə marağını artırıb. Təsərrüfat sahibi Əfras Əsgərov deyir ki, 2016-cı il ölkə rəhbərliyi tərəfindən keçirilən müşavirədən sonra pambıqçılığın prioritet sahəyə çevrilməsi və hər ötən il dövlət tərəfindən göstərilən dəstək bu gün öz bəhrəsini verməkdədir. Pambığın alış qiyməti və subsidiyaların artırılması, həmçinin müasir texnikalarla səpin və yığım işləri, o cümlədən gübrələrin vaxtında verilməsi bol məhsul götürməyə imkan verir. Təkcə ötən il 130 hektar sahədən hər hektara 46 sentner olmaqla, 579 ton məhsul tədarük edən fermer cari ildə hər hektara 50 sentnerdən çox məhsul götürməyi planlaşdırır.

Fermer Vaqif Cavadov da eyni fikirdədir. "Pambıqçılıqdan yüksək qazanc əldə etdiyimizə görə ötən illə müqayisədə əkin sahəsini də artırmışıq. Ötən il 30 hektar sahədən 120 ton məhsul topladıq, builki əkin sahəmiz isə 70 hektardır", - deyə o bildirib.

Şöbə müdiri İlham Quliyev isə qeyd edib ki, "Azərpambıq ASK" MMC tərəfindən cari ildə 25520 hektar sahədə pambıq əkilməsi üçün 4848 fermerlə müqavilə bağlanılıb. Səpin kampaniyasından öncə sahələr arata qoyulub və lazımi aqrotexniki qaydalara uyğun olaraq iş görülüb. Kampaniyada səpin işlərinin optimal müddətdə başa çatdırılması üçün 230 ədəd texnika, 122 ədəd pnevmatik toxum səpən və 40 ədəd mexaniki toxum səpən işə cəlb edilib.

## İstixana təsərrüfatlarında yetişdirilən məhsulların çoxu yerli bazarlara çıxarılır

Kürdəmir rayonunda cari ilin ilk üç ayında istixana təsərrüfatlarında 383 ton tərəvəz məhsulları istehsal olunub və yetişdirilən məhsulların çoxu yerli bazarlara çıxarılıb.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, Kürdəmirin istixana təsərrüfatlarında 21,3 hektarda tərəvəz bitkiləri, o cümlədən pomidor və xiyar əkilib. 2022-ci ilin birinci rübündə bu təsərrüfatlarda 319 ton pomidor, 64 ton xiyar yetişdirilib.

Qeyd edək ki, istixana təsərrüfatları, əsasən, rayonun Atakişili, Mollakənd və Muradxan kənd icra nümayəndəliklərinin ərazilərindədir.







### 7 Aprel Dünya Sağlamlıq Günüdür

# Sağlamlığın etibarlı keşiyində

## Daxili İşlər Nazirliyinin A.Heydərov adına Respublika Hospitalında mükəmməl tibbi xidmət göstərilir

**"...Bu hospital doğrudan da dünyanın ən yüksək standartlarına cavab verir. Dünyanın ən inkişaf etmiş ölkələrində mövcud olan xəstəxanalardan heç nə ilə fərqlənmir. Bəlkə də, onları qabaqlayır. Burada ən müasir avadanlıq quraşdırılıb və bina da çox gözəl, zövqlə tikilibdir. Həm xarici görünüşü gözəldir, həm də daxili dizaynı. Şübhə etmirəm ki, burada işləmək də çox xoş olacaqdır".**

Prezident İlham Əliyev 2009-cu ildə Daxili İşlər Nazirliyinin Arif Heydərov adına Hospitalının yeni binasının açılışında səsləndirmişdi bu yüksək fikirləri... Dövlət başçısı həm də onu vurğulamışdı ki, burada gözəl tibbi xidmət, xəstələrə böyük qayğı göstərilməlidir. Ötən müddət ərzində daha da inkişaf edən DİN-in hospitalı qarşısına qoyulan tələbləri layiqincə yerinə yetirməyi bacarıb.

Bu tibb müəssisəsində unikal cərrahi əməliyyatlar aparılır, ən müasir avadanlıqlarla xəstəliklərin dəqiq diaqnostikası həyata keçirilir, düzgün müalicə metodları seçilir. Hospitala üz tutan bütün xəstələr tibb heyəti tərəfindən həssas yanaşma, diqqət və qayğı sayəsində tez bir zamanda sağlamlıqlarına qovuşaraq xidməti vəzifələrinin başına dönürlər.

### Cərrahi əməliyyatların əksəriyyəti qapalı üsulla həyata keçirilir

Apendisitin ağırlaşmış forması ilə (apendikulyar çıxıntının kəskin iltihabı, qanqrenoz formada) martın 31-də hospitala gətirilən polis leytenantı Mirzə Məmmədov ən müasir cərrahi üsulla əməliyyat olunanlardan biridir. Dünya Sağlamlıq Günü ərəfəsində sözügedən hospitala reportaj hazırlamağa yollandığımız zaman Cərrahiyyə şöbəsinin palatasında Mirzə Məmmədovla həmsöhbət olduq.

Gənc polis leytenantı əməliyyatdan qısa zaman keçməsinə baxmayaraq, həkimlərin artıq onun evə çıxa biləcəyinin mümkün olduğunu sevinclə söylədi: "Əməliyyatım çox ağrısız şəkildə həyata keçirildi. Bura gələndə qarın boşluğumda hədsiz spazm ağrıları var idi. Sağ olsunlar, həkimlərin göstərdiyi diqqət və qayğı nəticəsində əməliyyatdan sonra bütün ağrılardan qurtulmuşam, özümü çox yaxşı hiss edirəm. Tezliklə də xidməti vəzifəmi icra etməyə qayıdacam..."

Palataya əməliyyat etdiyi xəstələrin vəziyyəti ilə maraqlanmağa gələn hospitalın Cərrahiyyə şöbəsinin rəisi, tibb elmləri namizədi Vüsal Eminov məlumat verdi ki, bu şöbədə ümumi qarın boşluğu üzrə cərrahi əməliyyatlar icra olunur və bunların əksəriyyəti laporoskopik, yeni qapalı üsulla həyata keçirilir: "Qarın boşluğunda qasıq yırtığı, kor bağırsağın iltihabı, mədə, onkoloji əməliyyatlarını qapalı üsulla edirik. Bu üsulun üstünlüyü odur ki, xəstələr geniş, uzun kəsiklərdən azad olur. Açıq üsulla əməliyyat zamanı, tibbi baxımdan xəstələrin əməliyyatdan sonrakı dövrü olur, yaxud əməliyyatdan sonra yırtıqlar əmələ gələ bilir, müəyyən ağrılar olur, xəstənin əmək qabiliyyətinin bərpa olunması uzun çəkir və sair. Amma qapalı üsulla əməliyyat etdiyimiz xəstələrin çoxu tam sağalaraq səhərisi gün ayağa qalxır".

### Uğurlu inkişaf

Yüksək uğurları ilə hər zaman seçilən bu hospital 1964-cü ildə yaradılıb. Vaxtilə 100 çarpayılıq və 90 nəfərə yaxın tibb işçisi olan hospitalda 3 şöbə (terapiya, cərrahiyyə və nevrologiya) və 7 həkim kabineti olub. 1993-1994-cü illərdə tədricən çarpayı fondu, şöbələrin və kabinetlərin, tibb işçilərinin sayı artırılıb. Hospitalın ştat cədvəlində dəyişikliklər edilib, zabitlərin sayı artırılıb, yeni şöbələr yaradılıb. Bacarıqlı, savadlı tibb bacılarına xüsusi rütbələr verilib.

1988-1994-cü illərdə respublikanın ağır günlərində bu hospitalda cəbhə bölgələrində xəsarət almış minlərlə daxili işlər orqanları əməkdaşlarına, Daxili Qoşunların hərbi qulluqçularına və mülki vətəndaşlara yüksək səviyyədə tibbi xidmət göstərilib, onların reabilitasiyası üçün hər cür şərait yaradılıb. Həmin dövrlərdə hospitalın onlarca həkim zabiti cəbhə zonasında əzmkarlıqla fəaliyyət göstərib. Eyni zamanda hospital tərəfindən bir qrup yaralının Almaniyada, Türkiyədə, İranda, Bolqarıstanda müalicəsinin davam etdirilməsi təşkil edilib.

1993-cü ilin oktyabrında Ulu Öndər Heydər Əliyev hospitala gələrək Qarabağ müharibəsinin yaralıları ilə görüşüb. 1996-cı ildə isə Prezident Heydər Əliyevin sərəncamı ilə görkəmli dövlət xadimi, Azərbaycanın sabiq Daxili İşlər Naziri, general-leytenant Arif Nəzər oğlu Heydərovun xatirəsi əbədiləşdirilərək onun adı bu hospitala verilib.

















Hospitalın hazırkı binası 2009-cu il fevralın 25-də Prezident İlham Əliyevin xeyir-duası ilə istifadəyə verilib. 2010-cu ildə hospitalın nəzdində Stomatoloji Mərkəzin və DİN-nin 1 saylı poliklinikasının yeni binasının, 2013-cü ildə isə Hemodializ şöbəsinin açılışı olub.

Hazırda hospitalda çarpayı fondu 360-dır. 100-dən artıq həkim, 20 şöbə, 2 mərkəz, 1 bölmə və 6 yardımçı xidmət sahəsi fəaliyyət göstərir.

### Qarşıdakı planlar

DİN hospitalının baş həkiminin müalicə işləri üzrə müavini Namiq Bədirxanov söylədi ki, bu gün müasir tibb müəssisələrindən sayılan, zəngin maddi-texniki bazaya malik olan hospital polis əməkdaşlarının, onların ailə üzvlərinin, təqaüdçülərin, eləcə də mülki işçilərin sağlamlığının qorunması isiqamətində yüksək xidmət göstərməyə çalışır.

Eyni zamanda bu hospitalda işləyən hər bir əməkdaşın qarşısında böyük məsuliyyət hissi, peşə və vəzifə borcunu yüksək səviyyədə yerinə yetirilməsi məsələsi dayanır. N.Bədirxanov bildirdi ki, hospitalda yeni şöbələrin açılması bir sıra yeniliklərin edilməsi də qarşıda planlaşdırdıqları məsələlərdəndir: "Artıq hospitalda İnvaziv kardiologiya şöbəsi açılıb, bura avadanlıq və sair baxımdan tam təmin edilib. Hazırda həkim seçimi mərhələsindəyik. İnvaziv kardiologiya işə düşdükdən və özünü doğrultduqdan sonra isə ikinci addım kimi kardio-cərrahiyyə şöbəsinin yaranması olacaq. Onu da deyim ki, hazırda hospitalımızda qan bankı yoxdur. Artıq bununla bağlı avadanlıqlar alınıb və yaxın gələcəkdə özümüzün qan bankımız da olacaq".

İxtisasca üz-çənə cərrahı olan həkim onu da söylədi ki, təbii olaraq hospital respublikada gedən İcbari Tibbi Sığorta ilə bağlı yeniliklərdən də kənarda qalmır: "Hazırda bu məsələ də rəhbərliyimiz tərəfindən nəzərdən keçirilir və ola bilsin ki, gələcəkdə hospitalda müalicə alan mülki vətəndaşlar İcbari Tibbi Sığortadan yararlana biləcəklər".

### Azərbaycanda ilk koxlear implantasiya burada həyata keçirilib

Yuxarıda vurğuladığımız kimi, DİN-in hospitalı, nadir cərrahi əməliyyatlara imza atıb. 2014-cü ildə koxlear implantasiya respublikamızda ilk dəfə olaraq bu hospitalda həyata keçirilib. Bu əməliyyatın əsas özəlliklərindən biri anadangəlmə kar doğulmuş körpələrin gələcək əlilliyinin qarşısının vaxtında alınmasıdır.

Hospitalın Otorinolarinqologiya şöbəsinin rəisi Kamil Yusifov bildirdi ki, vaxtilə davamlı icra etdikləri koxlear implantasiyanı əsas nailiyyətlərindən biri hesab edir. Çünki o uşaqlar indi sərbəst danışırlar. 2009-cu ildən hospitalda çalışan Kamil həkim söylədi ki, rəhbərlik etdiyi şöbədə burun, boğaz, qulaq xəstəliklərinə aid xidmətlər yüksək səviyyədə həyata keçirilir: "Şöbəmiz müasir avadanlıqlarla təchiz edilib və burun, boğaz, qulaq əməliyyatları da müasir cihazlarla icra edilir. Xəstələrimizin hospitalda yatış günü çox qısa olur. Demək olar ki, əksəriyyətində 1 gün, ən çox 2 gün ola bilər. Ümumiyyətlə, işimizi müasir standartlar səviyyəsində qurmuşuq və hazırda da davam etdiririk".

Otorinolarinqologiya şöbəsində qulaq pərdəsinin bərpası, qulaqda xroniki infeksiyaların ləğvinə aid əməliyyatlar icra olunur. Burunda endoskopik üsulla xroniki qaymaritlərin müalicəsi, həmçinin estetik, burun tənəffüsünə aid əməliyyatlar keçirilir. O cümlədən boğazda "artıq ət", səs telləri (məsələn, səs tellərində hər hansı polip, törəmə olan zaman) əməliyyatları icra olunur.

Travmatologiya şöbəsində travmatologiya ortopediya sahəsində də ən müasir əməliyyatlar icra olunur. Şöbənin rəisi, tibb xidməti mayoru, tibb üzrə fəlsəfə doktoru Ramil Nəcəfov məlumat verdi ki, hospitalda ən ağır sınıqların müalicəsi, ortopedik əməliyyatlar, deformasiyalar, oynaq əməliyyatları, qapalı oynaq əməliyyatları uğurla həyata keçirilir. Həmçinin uşaq ortopediyası, uşaq sınıqları uşaq travmatologiyası, anadangəlmə qüsurlarla məşğul olurlar.

### Hospital pandemiya sınağından da layiqincə çıxıb

Müasir dövrümüzün bəlası olan COVID-19 pandemiyası zamanı da hospital böyük məsuliyyət və əzmlə polis əməkdaşlarının sağlamlığının qorunması istiqamətində, sözün əsl mənasında, gecə-gündüz çalışıb. DİN-in Tibb İdarəsinin nəzdində Epidemioloji Mərkəzdə virusun yayılmağa başladığı zamandan qısa müddət sonra anti-COVID-19 tədbirləri çərçivəsində PSR testlərin götürülməsi həyata keçirilib. Eyni zamanda ölkəmizdə infeksiyaya yoluxmanın pik həddində iki dəfə (2020-ci ilin iyul-avqust və noyabr-dekabr aylarında) DİN-in hospitalı COVID-19 xəstəxanası kimi fəaliyyət göstərib. Burada, əsasən, virusa yoluxan və stasionar şəraitdə müalicəyə ehtiyacı olan polis və Daxili Qoşunların əməkdaşlarının müalicəsi həyata keçirilib.

Hospitalın Terapiya şöbəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Samirə İmanova söylədi ki, həmin dövrdə bütün xəstəxanalarda olduğu kimi, çalışdığı hospitalda da COVID-19-la mübarizə aparılıb. Hospitalın kollektivi bu gözlənilməz vəziyyətə dərhal uyğunlaşıb və tez səfərbər olmağı bacarıb: "Təbii ki, iş gərgin, çətin idi. Ona görə ki, bu xəstəliklə bağlı lazımi məlumatımız yox idi. Buna görə də demək olar ki, protokola uyğun müalicə ilə yanaşı, hər bir xəstəyə individual yanaşma var idi. Göstərilən bu yanaşmanın effekti yaxşı oldu, xəstəliyə tutulan polis əməkdaşlarının hamısı sağalaraq xidməti vəzifələrinə döndülər. Beləliklə, o çətin prosesdən üzüağ çıxa bildik".

Samirə İmanova qeyd etdi ki, COVID-19 dövründə müalicə üçün hər bir təminat hospitalın öz fondu hesabına həyata keçirilib. Polis əməkdaşları 100 faiz dərmanla təmin olunub: "İndi post-COVID dövründəyik və COVID-19-dan sonra xəstələrdə əmələ gələn fəsadlarla məşğul oluruq. Burada ağciyər problemləri daha çox üzə çıxır. Mədə-bağırsaq, böyrək problemləri hazırda daha çox məşğul olduğumuz işlərdir".

Həkim onu da söylədi ki, 2009-cu ildə hospitalın yeni binası istifadəyə verildikdən sonra Terapiya şöbəsi genişlənib. 40 nəfərlik çarpayı fondu 60 nəfərlik olub: "Demək olar ki, polis əməkdaşları hər bir xəstəlik üzrə bizim şöbədə tam müalicə alırlar və tam sağalaraq xidməti vəzifələrinə qayıdırlar".

Həmsöhbət olduğumuz hospitalın baş tibb bacısı Sevinc Abdullayeva qeyd etdi ki, hər zaman olduğu kimi, tibb bacıları olaraq COVID-19 pandemiyasının pik dövründə, hospital koronaviruslu xəstələrə xidmət göstərdiyi zaman öz işlərinin öhdəsindən layiqincə gəldilər.

### Hərtərəfli şərait, yüksək xidmət, peşəkar yanaşma

30 ilə yaxındır ki, bu hospitalda çalışan həkim Bilqeyis Kərimova terapiyanın pulmonologiya və mədə-bağırsaq müalicəsi üzrə fəaliyyət göstərir. Bilqeyis həkim deyir ki, hazırda dünyada tibbə baxış fərqlidir, həkimlərin fəaliyyətində çox böyük dəyişikliklər var: "Mən əmək fəaliyyətinə başlayanda sadəcə stetoskop və barmaqlarımla diaqnoz qoyurdum. Həkimlərin yardımçıları rentgen aparatı və laborator müayinələr idi. Amma son dövrlərdə həkimlərə yardım edə bilən fəaliyyətlər genişlənib. Laboratoriyalarda daha çox analizlər aparılır, kompüter tomoqrafiyası, MR müayinələr keçirilir və sair. Yəni bunlar bizə dəqiq diaqnoz qoymağa çox yardım edir. Bu baxımdan hospitalımızda da ən yüksək şəraitin, ən müasir avadanlıqların olması bizə işimizdə böyük yardımçı olur".

Hospitalda ən ağır xəstələrin yerləşdirildiyi şöbəyə, reanimasiyaya da baş çəkdik. Bu şöbədə ağır travma alan, infarkt, insult keçirən xəstələr müalicə alırlar. Onlara ilkin olaraq 15-20 gün yardımlar göstərilir. Xəstələrin vəziyyəti stabilləşdikdən sonra isə müvafiq şöbələrə köçürülürlər. Şöbələrdə isə xəstələr 1 həftə-10 gün yatdıqdan sonra evə yazılırlar. Baş ordinator, reanimotoloq Aynur Mustafayeva bildirdi ki, şöbə ən yüksək müasir avadanlıqlarla təchiz olunub: "Yeni xəstə burada yerində USM-dən, rentgendən keçir. Müasir laboratoriyamız fəaliyyət göstərir. Həmçinin süni tənəffüs aparatlarımız da var. COVID-li xəstələrlə işlədiyimiz dövrdə bəzi xəstələri süni nəfəs aparatına bağladıq".

### Polislərin sağlamlığı güvənli əllərdədir

"Böyrək çatışmazlığım, ürəyimdə döyünmə, qaraciyərimdə piylənmə var, həm də şəkər xəstəsiyəm. Bir həftədir ki, bu hospitalda müalicə alıram. Sağ olsun, həkimlərimiz ki, mənə çox yüksək səviyyədə xidmət göstərirlər, vəziyyətimlə daim maraqlanırlar". Terapiya şöbəsində müalicə alan 63 yaşlı təqaüdçü polis polkovnik-leytenantı Qüdrət Məmmədovla palatada həmsöhbət olduğumuz zaman söylədi bu fikirləri.

Təqaüdçü polis deyir ki, digər şöbələrdən böyrək, şəkər xəstəliyini müalicə edən həkimlər də dəvət olunur və gəlib burada onu müayinə edirlər: "Onu da deyim ki, işlədiyim dövrdə də bu hospitalda müəyyən müalicələr almışam. Nevrologiya şöbəsində yatmışam. Elə o zaman da bu hospitalda mənə və digər xəstələrə göstərilən yüksək səviyyədə qayğı və diqqətin şahidi olmuşam".

Bəli, bunlar Daxili İşlər Nazirliyinin Hospitalında keçirdiyimiz bir gün ərzində müşahidə etdiyimiz qaynar iş mühitinin qısa xülasəsidir. Dünyanın ən inkişaf etmiş ölkələrində mövcud olan xəstəxanalarla bir sırada dayanan, ən müasir avadanlıqlar quraşdırılan, peşəkar tibbi heyət çalışan bu hospitalla tanışlığımız onu deməyə əsas verir ki, daxili işlər orqanları əməkdaşlarının sağlamlığı güvənli əllərdədir.

*Necə ki, polislərimiz ayıq-sayıq xalqımızın təhlükəsizliyinin keşiyindədir, eləcə də Daxili İşlər Nazirliyinin A.Heydərov adına Respublika Hospitalı da Azərbaycan polisinin sağlamlığının keşiyindədir.*

***Yasəmən MUSAYEVA, İlham BABAYEV (foto), "Azərbaycan"***

# Alimin böyük uğuru

## Professor Habil Qurbanovun "Müqayisəli hüquqşünaslıq" adlı dərsliyi ABŞ-da ingilis dilində nəşr olunub

Bu tanınmış Azərbaycan aliminin əsərinə verilən yüksək dəyər nümunəsi olmaqla yanaşı, bütövlükdə Azərbaycanın hüquq ictimaiyyəti üçün də əlamətdar hadisədir. Belə ki, böyük elmi nailiyyətləri və demokratik ənənələri ilə seçilən Amerika Birləşmiş Ştatları kimi nəhəng bir dövlətdə başqa hüquq sisteminə aid ölkədən olan müəllifin əsərinə diqqət yetirilməsi və onun nəşr olunması, öz-özlüyündə, nadir hadisədir.




Qeyd edək ki, müqayisəli hüquqşünaslığın ayrıca elmi-hüquqi fənnə çevrilməsi müstəqillik dövrünə təsadüf edir. Bundan əvvəl mövcud olmuş ideoloji münasibətlər müxtəlif hüquq sistemlərinin obyektiv müqayisəsinə və hüquqi təcrübənin konstruktiv mübadiləsinə mane olurdu ki, bu da keçmiş SSRİ-də aparılan müqayisəli hüquq tədqiqatlarını xeyli dərəcədə məhdudlaşdırırdı.

SSRİ-nin süqutundan sonra ölkənin dövlət-hüquq strukturunun əsaslarının tamamilə dəyişdirilməsi, yeni hüquq sisteminin qurulması və bununla əlaqədar olaraq, xarici qanunvericilik təcrübəsinə müraciət edilməsi ölkəmizdə də müqayisəli hüquqşünaslıq elminin inkişafını zəruri edib.

Professor Habil Qurbanovun aktuallığı ilə seçilən və böyük zəhmət tələb edən belə bir mövzuya müraciət etməsi, olduqca faydalı dərs vəsaitini tamamlamağa nail olması və onun əsərinin ölkəmizin hüdudlarından kənarda dəyərləndirilərək nəşr edilməsi fərəhli haldır.

Mövzunun aktuallığı, hər şeydən əvvəl, onunla müəyyən olunur ki, müstəqil hüquq sisteminin transformasiyası və onun daim yenilənən ictimai-siyasi və iqtisadi şəraitə uyğunlaşdırılması kimi mürəkkəb prosesdən keçən hər bir dövlət üçün müqayisəli hüquqşünaslıq mühüm rol oynayır. Belə ki, bu sahədə oxşar problemlərin həlli nəticəsində digər ölkələrin əldə etdiyi təcrübə prinsipial əhəmiyyət kəsb edir.

Müqayisəli hüquqşünaslıq (müqayisəli hüquqi tədqiqatlar) kifayət qədər gənc, lakin intensiv inkişaf edən akademik fəndir. Son onilliklərdə beynəlxalq hüquq sahəsində mütəxəssislərə tələbat əhəmiyyətli dərəcədə artıb. Qeyd edək ki, ənənəvi "Xarici ölkələrin hüquq sistemləri" adlanan, əslində isə müasir hüquq sistemlərinin ümumi nəzəriyyəsi kimi mövcud olan fənni tədris etmədən belə mütəxəssislər hazırlamaq mümkün deyil.

Bütün bunlar belə deməyə əsas verir ki, müqayisəli hüquqşünaslıq hüquq sistemlərini, o cümlədən onların tərkib elementləri və fərqli cəhətlərinin bir sistemdə necə birləşdiyini öyrənən akademik fəndir.

Dərslik "Müqayisəli hüquqşünaslıq" fənninin əsas müddəalarını əks etdirir və postklassik elm çərçivəsində aktual olan müqayisəli hüququn idrak nəzəriyyəsinə dair müəllifin mövqeyini təqdim edir.

Dərslikdə müqayisəli hüquqşünaslığın təşəkkülü və inkişafı tarixi, onun cəmiyyət həyatındakı rolu və əhəmiyyəti, funksiyaları ilə bağlı məsələlərə toxunulub. Milli hüquq sistemlərinin təsnifatı problemlərinə və əsas hüquq sahələrinin xüsusiyyətlərinə xüsusi diqqət yetirilib. Eləcə də beynəlxalq və milli (daxili) hüquq arasında nisbət məsələlərinə baxılıb. Dərslik xarici və yerli materialın, eləcə də müxtəlif ölkələrin müqayisəli hüquqşünaslıqdan istifadə təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi əsasında yazılıb.

Müqayisəli hüquq kursu gələcək mütəxəssislərdə hüquq münasibətlərinin tənzimlənməsi sahəsində geniş dünyagörüşünün formalaşması üçün zəruri əsasdır. Belə ki, digər ölkələrin qanunvericilik təcrübəsi və onların əldə etdiyi nailiyyətlər milli hüquqşünasları daim maraqlandırır. Müqayisəli hüquqşünaslıq, alimlərin və təcrübi işçilərin həmişə istifadə etdiyi xarici hüququ öyrənmək üsuludur.

Hazırda dünyada ictimai həyatın bir çox sahələrində inteqrasiya prosesləri intensivləşir. Bu, hüquqi reallığı da əhatə edir. Dünya birliyi və ayrı-ayrı dövlətlər ümumi hüquq prinsiplərinin vacibliyini qəbul edir və müxtəlif hüquq sistemlərinin yaxınlaşmasını dəstəkləyir. Milli qanunvericiliyin inkişafı sahəsində təcrübənin öyrənilməsinə və qarşılıqlı istifadəsinə, hüquqi məlumatların və elmi ideyaların mübadiləsinə maraq artır.

Təqdim olunan dərs vəsaitində müqayisəli təhlillər əsasında dünyanın müxtəlif dövlətlərinin hüquq sistemlərinin ümumi və spesifik cəhətlərindən, onların oxşar və fərqli xüsusiyyətlərindən danışılmaqla yanaşı, ayrı-ayrı ölkələrin, dövlətdaxili qurumların və dövlətlərarası birləşmələrinin hüquq sistemlərinin səciyyəvi xüsusiyyətləri və müsbət cəhətləri nəzərdən keçirilir. Eyni zamanda bu əsər dövrümüzün əsas hüquq sistemlərinin mənşəyi və təkamülü məsələlərini ortaya qoyur və tələbə auditoriyasını hüququn qavranılmasına müxtəlif yanaşmalarla tanış etmək məqsədi daşıyır.

Hazırda müəllif həmin dərsliyin Azərbaycan dilində olan variantını çapa hazırlayır. Dərs vəsaiti hüquq fakültələrinin tələbələri, doktorantlar, müəllimlər və müqayisəli hüquqşünaslıqla maraqlanan digər oxucular üçün nəzərdə tutulur.

***Nazim CƏFƏRLİ, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun Dövlət və Konstitusiya hüququ şöbəsinin müdiri, hüquq üzrə elmlər doktoru, professor***



## Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



**Qarabağ Azərbaycandır!**

# Gözəllik simvolu - Qarabağ çayları



**Şuşanın təkrarolunmaz təbiət mənzərələri, yerüstü və yeraltı sərvətləri sırasında onun çayları da gözəllik simvolu, ruzibərəkət mənbəyidir. Adətən yerüstü bulaqlar xırda axarlarda, xırda axarlar isə çaylarda cəmləşir. Odur ki, təbii olaraq, suyun təbiətdə böyük dövranının mühüm halqası çayların payına düşür. Şuşanın kəndlərindən, şəhərin ətraflarından keçən bir neçə çay Qarabağ torpağının suya olan tələbatının ödənilməsində mühüm rol oynayır.**

Xatırladaq ki, Kiçik Qafqazın Qarabağ silsiləsi ərazisində yerləşən Şuşanın ərazisi 289 $km^2$-dir. Buraya bir şəhər və 31 kənd daxildir. Səthi dağlıqdır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725 m). Ərazisinin əksər hissəsi yayı quraqlıq keçən mülayim isti, qışı isə quraq keçən soyuq iqlim tiplərinə aiddir. Torpaqları qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Yüksək dağlıq sahələr subalp və alp çəmənlikləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar var.

Coğrafiyaşünasların və tədqiqatçıların məlumatlarında xüsusilə diqqətə çatdırılan odur ki, təbiətin Qarabağa bəxş etdiyi ən böyük sərvətlərdən biri də bu yurdun ana damarı olan məşhur Qarqar çayıdır. Mənbəyini uca dağ silsiləsindən - 2089 metr hündürlükdən götürən bu çayın uzunluğu 115 kilometr, hövzəsinin sahəsi 1490 kvadrat kilometrdir.

Qarqar çayı haqqında bir çox antik və Orta əsr müəlliflərinin əsərlərində, o cümlədən, eradan əvvəl və eramızın başlanğıcında yaşamış qədim yunan tarixçisi və coğrafiyaşünası Strabonun "Coğrafiya" kitabında geniş məlumat verilir. Həmin qədim mənbədə qarqarların Qafqaz Albaniyasında yaşayan tayfalardan biri olduğu göstərilir və çayın öz adını həmin tayfanın adından götürdüyü ehtimal olunur.

Qarqar iki əsas çayın qovuşmasından əmələ gəlib. Biri mənbəyini Kirs, o biri isə Sarıbaba dağının sinəsində daim qaynayan şəffaf, buz kimi soyuq sulu bulaqlardan götürən və hündür aşırımlardan çağlaya-çağlaya kükrəyib gələrək Ağa körpüsündə birləşən Daşaltı, o biri isə Xəlfəli çayıdır.

Qarabağ silsiləsindən başlayaraq sıldırım qayalardan, sərt döngələrdən, hündür dağlardan kükrəyib gələn və ərazisindən axdığı eyniadlı kəndin adı ilə adlandırılan Zarıslı çayı Şuşanın cənub tərəfindən keçir. Daşaltı ərazisindən keçdiyinə görə çayın sonrakı axarı bu kəndin adını daşıyır. Hövzəsinin sahəsi ümumilikdə 120 kvadrat kilometrdir və uzunluğu 25 kilometrə çatır. Çay sərt döngə və pillələrdə axınını sürətləndirir və hər iki sahilindəki qayalarda dərin yarıqlar açır. Sonra çayın dərəsi xeyli genişlənərək şəlalələr əmələ gətirir və Ağa körpüsünədək uzanıb gedir.

Başlanğıcını Qarabağın dağ silsiləsindən götürərək qıjıldaya-qıjıldaya çağlayıb üzüaşağı axıb gedən, dupduru bulaq sularından yaranmış Xəlfəli çayı da eyniadlı kəndin adını daşıyır. Çay şimal tərəfdən təxminən 200 metr hündürlükdən axır və Ağa körpüsündə Daşaltı ilə birləşib Qarqarı əmələ gətirir.

Mənbələrin yazdığına görə, Qarabağ silsiləsinin yamaclarında olan saysız-hesabsız büllur bulaqlarla, yağış, qar və yeraltı sularla qidalanan bir neçə kiçik çay dərin və dar dərələrlə axaraq Qarqara qovuşur. Çayın sağ qolları öz mənbəyini Bağırqan və Çınqıllı dağının ətəklərindən götürən, vaxtilə mövcud olmuş yaşayış məntəqəsinin adı ilə adlandırılan və Malıbəyli kəndi ərazisindən keçərək Qarqara qovuşan Ağvan çayı və Ağ çaydır. Çayın sol qolları isə Ballıca və Badaradır. Həmin kiçik çaylar Qarqara tökülərək onu "ətə-qana gətirir", güc-qüvvət verərək çayın sürətli axınını təmin edir.

Dağlarda, xüsusilə, yay aylarında qar və buzlar sürətlə əriyəndə, şiddətli yağışlar yağmağa başlayanda dağ çayı məcrasına sığışmır, aşıb-daşır, ətraf yerləri su basır. Digər fəsillərdə hərdən gur, hərdən də sakit axan çayın suyu yenə də çoxalır, düzənliklərdə sürəti xeyli azalır, yavaş-yavaş, burula-burula, ahəstə-ahəstə Aşağı Qarabağ istiqamətinə yön alır. Çayın hər iki sahili otlaqlara, yaşıllıqlara bürünür.

Qarabağın bu ən böyük çayı öz qolları ilə böyük bir sahəni tutur və neçə-neçə irili-xırdalı çayın suyunu qəbul edərək dərin dərələrdən, geniş düzlərdən keçib Ağ gölə tökülür.

Lap qədimlərdən insanları su ilə təmin edən və həyat mənbəyi rolu oynayan Qarqardan bu gün də ətraf yerlərin su təchizatında geniş istifadə olunur. Çay boyu uzanıb gedən üzüm, tut, nar, əncir bağları, bostanlar, tarlalar, min hektarlarla əkin sahələri suvarılır. Çayın kənarında çoxlu səfalı guşələr var. Ətrafında yerləşən sərin bulaqlar, şəlalələr, göllər, bağ-bağat, xoş hava adamın könlünü oxşayır, qanını durultdur, ruhunu təzələyir.

İndi bu yerlərdə nəinki, hər an gözünüzü oxşayan gülün-çiçəyin, xatırlatdığımız çayların, onun ətrafında min bir gözəlliklə müşahidə olunan yaşıllıqların, kol dibindən boylanan bənövşənin də yanından diqqətsiz ötmək olmur. İnsanları məmnun edən odur ki, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u və ordumuzun şücaəti sayəsində Ermənistan silahlı birləşmələrinin 30 illik işğalından il yarım əvvəl azad olmuş qədim Şuşa çayları daha üræyəyatımlı görünür.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**Sәhnә xadimləri**

# Sənət aşiqi



**Dövrünün ən görkəmli, ustad sənətkarlarından olan Mirzə Muxtar Məmmədov xalqın yaddaşında əbədiləşən parlaq simalardan biridir. Onun Azərbaycan mədəniyyətinin inkişafında xüsusi yeri vardır. Qarşıya qoyduğu məqsəd və amalına nail olmaq üçün bütün gücünü, istedadını səfərbər edən, maneə və qadağalara səbir, dözüm və təmkinlə yanaşan xoşməramlı bir insan, milli teatr tarixində unudulmaz xidmətləri olan sənətkarlardan idi. Mirzə Muxtarın ömrü fədakarlıqlarla doludur, öz mövqeyi, şəxsiyyəti, dəst-xəti ilə tanınmış peşəkarlar içərisində bu səhnə xadiminin adı ilklərdə çəkilir. O, həm də kamil bir musiqişünas idi.**

1852-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Atası Mirzə Əli Əsgər Qarabaği Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm xidmətlər göstərmiş sənətkarlardan sayılırdı. Onun həm gözəl səsi vardı, həm də mahir tar ifaçısı idi. Uzun illər Xurşidbanu Natəvanın atası Mehdiqulu xanın sarayında Mirzə Hüseyn, Keştazlı Həşim, Hacı Hüsü, Məşədi İsi kimi məşhur xanəndələri tarda müşayiət etmişdir.

Mirzə Muxtarın musiqişünas kimi yetişməsində atasının böyük rolu olmuşdur. O, yeniyetməlik vaxtlarından atasının çalıb-oxumasını heyranlıqla dinləmiş, onun qurduğu məclislərdə püxtələşmiş, musiqinin incəliklərinə yiyələnmişdir.

## Ömür yolu

Mirzə Muxtar ibtidai təhsilini molla yanında almışdır. Sonra mədrəsədə təhsilini davam etdirmişdir. On bir yaşında türk-rus (rus-tatar) məktəbində oxumuşdur. Fars və rus dillərini mükəmməl öyrənmiş və bu dillərdə qəzəllər yazmışdır. İyirmi yaşından Şuşada müəllimliklə məşğul olmuşdur.

1870-ci ildə Novruz bayramı münasibətilə o, "Qaravəlli" tamaşası hazırlamış və bu oyun camaatın xoşuna gəlmişdir. Bundan sonra bütün bayramlarda məsxərəli, məzhəkəli tamaşalar səhnələşdirilməyə başlanılmışdır. İnsanlar belə tamaşalara böyük maraq göstərmişlər.

1874-cü ildə Mirzə Muxtar yerli ziyalıları ətrafına toplayıb Şuşada, "Hacıqululların zalı"nda M.F.Axundzadənin "Hacı Qara" komediyasını tamaşaya qoymuşdur. Tamaşa rus əsgərlərinin qışlamasında, yəni kazarmasında göstərilmişdir. Bu, teatr tarixində ilk tamaşa kimi, şəhərin mədəni həyatında müsbət rol oynamışdır. Həmin əlamətdar hadisə haqqında Mirzə Muxtar yazırdı: "Qırx beş il bundan əqdəm Şuşada mərhum Mirzə Fətəli Axundovun əsəri "Hacı Qara"nı teatra məxsus bir bina olmadığından qışlaqda (kazarmada) mövqeyi-tamaşaya qoydum. O vaxt mətbəə-filan olmadığından qələm ilən otuz beş elan yazdım və payladım cəmaətə. Axşam tamaşaçılardan bəziləri "şəriətə zidd şey bulsaq, vay halına" deyərək, məni hədələdilər. Bərəkət versin ki, dinə müxalif bir şey bulmayıb razı getdilər". Mirzə Muxtar özü də başa düşürdü ki, çətin bir yola qədəm qoyub. Təbii ki, bu yol da hər zaman hamar, rəvan, rahat olmur. Böyük əngəllər, maneələr həmişə vardı. Amma vaxt keçir, zaman dəyişirdi. Onun xoş niyyəti, əməli və inamı bir-birini elə tamamlayırdı ki, arzuladıqları çin olur, gördüyü işlərin biri digərinə təkan verirdi.

## Müsəlman səhnəsinin həvəskar artisti

Mirzə Muxtar Məmmədovun aktyorluğunun ilkin mərhələsi (1873-1883) Şuşa dövrünə aiddir. Bir müddət Tiflisdə və Gəncədə işləmiş, 1899-cu ildə Bakıya köçmüşdür. Şəhər məktəblərindən birində müəllimliyə düzələndən sonra oranın teatr həvəskarları ilə tanış olmuşdur. Tezliklə teatr tamaşalarının hazırlanmasında fəallıq göstərən ziyalı kimi tanınmışdır. 1905-ci ildən taleyini bütünlüklə teatr sənətinə bağlamışdır. Müxtəlif illərdə birinci və ikinci "Müsəlman dram artistləri cəmiyyəti"nin, "Həmiyyət", "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti", Abbas Mirzə Şərifzadənin rəhbərlik etdiyi "Müsəlman artistləri ittifaqı"nın dəstələrində aktyorluq etmişdir.

Yarım əsrlik səhnə fəaliyyəti ərzində o, Molla İbrahimxəlil, Dərviş Abbas, Molla Həmid ("Molla İbrahimxəlil kimyagər"), Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli şah"), Mirzə Əziz ("Sərgüzəşti-vəziri-xani-Lənkəran"), Şeyx Əhməd ("Ölülər"), Hacı Səməd ağa ("Bəxtsiz cavan") və başqa rollarda səhnəyə çıxmış, dini, cəhaləti, istibdadı, tamahkar və yalançıları, feodal mühitin eybəcərliklərini cəsarətlə ifşa etmişdi.

Əbdürrəhim bəy Haqverdiyev və Üzeyir bəy Hacıbəyli onu aktyor və xanəndə kimi Şuşadan yaxşı tanıyırdılar. Buna görə də "Nicat" teatr dəstəsinin və Hüseynqulu Sarabskinin "Müsəlman opera truppası"nın hazırladıqları opera tamaşalarında məlahətli səsi olan Mirzə Muxtar yaxından iştirak etmişdir. Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" əsərinin hazırlanmasında müəllifin yaxın köməkçisi və məsləhətçisi olmuşdur. 1908-ci il yanvarın 12-də göstərilən ilk tamaşada Əbül Qeys (Qeysin atası) rolunu oynamışdır.

Üzeyir bəyin "Şah Abbas və Xurşidbanu" operasının ilk tamaşasında (10 mart 1912) isə Vəzir rolunda çıxış etmişdir. Həmin vaxtdan Mirzə Muxtar əsasən, opera səhnəsində çalışmış, "Əsli və Kərəm"də Kərəmin atası, "Aşıq Qərib"də Xacə, "Şah İsmayıl"da Rəmmal, "Şah Abbas və Xurşidbanu"da Vəzir, "Mehr və Mah"da Yəmən şahı, "Fərhad və Şirin"də isə Şapur rollarını yüksək sənətkarlıqla ifa etmişdir. 78 yaşına kimi peşəkar teatrda çalışmışdır.

Mirzə Muxtar kişi rolları ilə yanaşı, qadın rollarında da oynamışdır. F.Şuşinski yazırdı ki, "45 illik çətin və ağır səhnə fəaliyyəti dövründə o, min bir müsibət çəkmiş, həmişə ehtiyac, avamlıq və cəhalətin təqibinə məruz qalmışdır. Səhnə həyatında onun başına nə qədər faciəli hadisələr, hətta gülməli əhvalatlar gəlmişdir..."

1908-1918-ci illərdə Mirzə Muxtar bir aktyor kimi Zaqafqaziyada, Şimali Qafqaz və Orta Asiyanın bir çox şəhərlərində opera və musiqili komediya tamaşalarında uğurlu obrazlar yaratmış və tamaşaçıların böyük rəğbətini qazanmışdır. 1913-cü ildə Bakının teatr ictimaiyyəti, teatr tariximizdə Mirzə Muxtarın müstəsna xidmətlərini nəzərə alaraq, onun səhnə fəaliyyətinin 40 illik yubileyini keçirir. "Kaspi" qəzeti 9 may 1913-cü il tarixli nömrəsində yazırdı: "Mirzə Muxtar Məmmədov müsəlman səhnəsinin ilk həvəskar artistlərindən biridir. O, birinci dəfə Şuşada müsəlman Molyeri Mirzə Fətəli Axundovun ölməz "Hacı Qara" pyesində oynamışdır. Müsəlman səhnəsi üçün onun xidmətləri ona görə qiymətlidir ki, o zaman səhnədə oynamaq mürtədlik hesab olunur, bu işə cəsarət edənlər isə avam camaat və dindarlar tərəfindən təqib olunurdu. O dövrdə qadın rollarını oynamaq daha böyük qəbahət sayılırdı. Bu rolları oynayanlar hər cür alçaldılır, onları hətta rolunu ifa etdikləri qadınların adı ilə çağırırdılar. Hamıya bəllidir ki, müsəlmanlar arasında kişinin qadın adı ilə çağırılması nə qədər ağır təhqirdir. Mirzə Muxtarın müsəlman səhnəsi üçün xidməti bir daha ona görə böyükdür ki, o, belə şəraitdə fəaliyyətə başlamışdı. Müsəlman səhnəsinin bu qocaman səhnə xadimi bu cür çətin maneələri keçib gəlmişdir" (Firudin Şuşinski).

## O, ömrünün son 10 ilini musiqişünaslığa həsr etmişdir

Mirzə Muxtar 1919-cu ildə 78 yaşında ikən səhnə ilə vidalaşmış, ömrünün son 10 ilini musiqişünaslığa həsr etmişdir. Hələ gənc yaşlarından atası Mirzə Əli Əsgərdən kamil musiqi təhsili alan və Şuşa musiqi məclislərində yaxından iştirak edən, dövrünün ən məşhur xanəndə və sazəndələri ilə daim təmasda olan Mirzə Muxtar, Azərbaycan xalq musiqisinin mahir bilicisi sayılırdı. O, eyni zamanda Şərq musiqisinin, xüsusilə klassik muğamların dərin nəzəriyyəçisi idi. Bir faktı da qeyd edək ki, erməni daşnakları 1918-ci ilin martında Bakıda vəhşiliklə kütləvi qırğınlar törədəndə 77 yaşlı qocaman teatr xadiminin evi dağılmış, olan-qalan varidatı əlindən çıxmışdır. Bu hadisədən sonra o, ağır günlər yaşamışdır. "Bəsirət" qəzeti 17 noyabr 1918-ci il tarixli sayında bu barədə xüsusi məqalə də yazmışdır. Üzeyir bəyin təşəbbüsü ilə ziyalılar ona yardım göstərmişlər.

Mirzə Muxtar 1929-cu il yanvar ayının 17-də 88 yaşında vəfat etmişdir. O zaman "Kommunist" qəzeti dərc etdiyi nekroloqda yazırdı: "Türk səhnəsinin bütün ağırlıqlarını çiyinlərində keçirmiş, uzun ömrünün çox böyük və dəyərli bir hissəsini bu səhnədə çalışmış, ən qoca aktyor Mirzə Muxtar həyat səhnəsindən həmişəlik olaraq çəkildi".

Bütün çətinliklərə, ağrı-acılara baxmayaraq, həyatda göstərdiyi səbir, təmkin və əzmkarlıq Mirzə Muxtarı sevdiyi sənətin peşəkarı kimi məşhurlaşdırmışdır. İstədiyi ömrü də yaşamışdır. Bu, onun haqqında yazılan fikirlərdə duyulan ilk məqamlardır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

**Yaddaş**

# Şuşanın qədim qəbirüstü abidələri



**Şuşa şəhərinin üç müsəlman qəbiristanlığı var. Onlardan biri, əsası 1840-cı ildə qoyulmuş Mirzə Həsən qəbiristanlığıdır. Şuşanın şimal-şərqində yerləşən bu qədim qəbiristanlıq XVIII əsrin axırları və XIX əsrin birinci yarısında yaşayıb yaradan şair Mirzə Həsən Mirzə Cəfər bəy oğlu Vəzirovun adı ilə adlandırılıb.**

Mirzə Həsən bəy 1791-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Rus və şərq dillərini bilirdi. Onun haqqında Mir Möhsün Nəvvab, Məhəmməd ağa Müctəhidzadə, Firudin bəy Köçərli öz əsərlərində geniş söhbət açmışlar. F.Köçərli yazırdı: "Mirzə Həsən İbrahim xanın müqərriblərindən Əliməhəmməd ağanın nəvəsi və Mirzə Cəfərin oğludur. Mirzə Həsən ziyadə mərifətli, xoşxülq və sahibcamal bir zat imiş və təbi-şeriyyəsi də var imiş. Əvaili-sinnində tərki-vətən edib Şəki xanlığına müsafirət edir və orada Nuxa şəhərində yeni açılmış rus dəftərxanasında münşilik əmrinə məşğul olur. Vəli ömrünün hənuz cavan çağında haman sərzəmində dari-bəqaya rehlət edir. Öz vəsiyyətinə görə, cənazəsi əsl vətəni Şuşa şəhərinə nəql olunur və şəhərin şimali-şərqisində bir verst kənarda dəfn olunur...". Belə ki, uzun illər vətən həsrəti ilə Şəkidə yaşamış nakam şair ölümqabağı onu doğma torpağında - Şuşada, sevdiyi qızın gəlib-getdiyi yolun kənarında dəfn etməyi vəsiyyət etmişdi.

1840-cı ildə həyatdan köçən Mirzə Həsəninin cənazəsi Şuşaya gətirilir və qala divarlarından bir qədər aralıda həmin yolun kənarında dəfn edilir. Bununla da Şuşada yeni bir qəbiristanlıq meydana gəlir. Və həmin vaxtdan da ora "Mirzə Həsən qəbiristanlığı" adı verilir.

Şuşadakı Mirzə Həsən qəbiristanlığında Qacarların ailə qəbiristanlığı yerləşib. Məzarlıq Şahzadə Bəhmən Mirzə Qacar İrandan Şuşaya köçəndən sonra salınıb. Burada məşhur Qacar nəslinin görkəmli simaları ilə yanaşı, sülalədən olan adi insanlar da dəfn edilib.

Mirzə Həsən qəbiristanlığında Qasım bəy Zakirin qəbirüstü abidəsi kiçik bir təpə üstündə - Cavanşir nəslinə mənsub olan ərazidədir. Əvvəllər türbə olmuş, sonra isə anadan olmasının 200 illiyi ilə əlaqədar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin xüsusi qərarına əsasən, 1984-cü ildə burada böyük şairin qəbirüstü abidəsi qoyulmuşdur. Həmin dövrdə Qasım bəy Zakirin qəbrinin ətrafında dəfn olunmuş XIX əsrin görkəmli şəxslərinin də məzarları bərpa edilmiş, kiçik təpəcikdə gül-çiçək və ağaclar əkilmiş, çəmənzar salınmışdı.

Qəbiristanlıqda şair Mirzə Ələsgər Növrəs, Qarabağ xanlarının baş veziri, tarixçi Rzaqulu bəy Vəzirovun atası Mirzə Camal Cavanşir Qarabaği, Xosrov bəy Fuladov - İbrahim bəy Azər oğlu, həkim, şair, xəttat Mirzə Məhəmmədqulu Hakim və dövrünün digər görkəmli şəxsiyyətləri dəfn olunmuşlar.

Şuşa şəhəri Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildikdən sonra qəbirlər tamamilə dağıdılmışdır.

## Cıdır düzündə yerləşən Mir Faseh qəbiristanlığı

Şuşadakı bir çox qəbiristanlıqlarla yanaşı, şəhərin cənub-şərqində Mir Fasehin kiçik, lakin çox mötəbər qəbiristanlığı da var idi. Qəbiristanlıq Mir Möhsün Nəvvabın babası, ilk dəfə orada dəfn edilmiş tanınmış alim, şair və musiqişünas Ağa Mir Faseh Ağanın şərəfinə adlandırılmışdır. Qəbiristanlığı Mir Möhsün Nəvvab abad etdirib. Molla Pənah Vaqif bu qəbiristanlığın yaxınlığında yerləşən Cıdır düzünün bir addımlığında dəfn edilib.

Nəvvab "Təzkirə" adlı əsərində bir hadisəni təsvir edir. Ağa Məhəmməd şahın öldürülməsindən sonra Qarabağda hakimiyyət İbrahim xanın kiçik qardaşı Mehrəli bəyin oğlu Məhəmməd bəyə keçir. O, hakimiyyəti öz əlində saxlamaq üçün əmisinin tərəfdarlarını öldürməyə başlayir. Molla Pənah Vaqifin İbrahim xanla qohumluğundan şübhələnərək onun oğlu ilə birlikdə edamına fərman verir. Vaqifi Şuşada böyük şərəflə dəfn edirlər. Məzarının üstündə kiçik bir məqbərə də tikilir ki, bura da sonradan ziyarətgaha çevrilir.

Şuşanın üçüncü müsəlman qəbiristanlığı tanınmış şəxslərin dəfn olunduğu yerdir. Həmin məzarlıq Yuxarı Gövhər ağa məscidinin sağ tərəfində yerləşir. Tədqiqatçı-jurnalist Vasif Quliyev Şuşadakı məzarlıqlar haqqında bildirir ki, Qasım bəy Zakirin qız nəvəsi şair İbrahim bəy Azər də burada dəfn olunub. Qəbiristanlıq açıq səma altında muzeyi xatırladır. Məzarların hər biri ayrı-ayrılıqda sənət əsəridir. Hər məzarın yerli mərmərdən baş və sinədaşı var. Onların üzərində nəstəliq xətlərlə Azərbaycan, fars və ərəb dillərində şeirlər, hikmətli sözlər, dəfn olunanın doğum və ölüm tarixi həkk olunub.

Alimlərin çoxillik araşdırmaları nəticəsində qədim məzarlıqlar, etiqrafik abidələr ilkin mənbələr kimi Azərbaycan tarixinin konseptual problemlərinin tədqiqində mühüm rol oynayır. Bu məzarlıqlar inzibati bölgü, dövlət quruluşu, əhalinin yaşayışı, məşğuliyyəti barədə geniş məlumat verir. Baş və sinədaşlarının üzərindəki bir sıra təsvirlər, qədim yazılarla titul, ləqəb və rütbələrlə həmin insanların şəxsiyyətlərini müəyyənləşdirmək mümkün olur, onların hansı zümrəyə aid olduqları dəqiqləşdirilir.

***"Azərbaycan"***

**Xəbər**



# Şuşa mədəniyyət beşiyidir

*TÜRKSOY-un Baş katibi: "Şuşanı yenidən qurub dirçəltməklə türk dəyərlərini bərpa etmiş olacağıq"*

"Mən özüm iki dəfə Şuşada olmuşam, oranı gəzmişəm və oradakı gözəlliyə bələdəm. Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir. Eyni zamanda Şuşa insanlar üçün mədəniyyət qaynağıdır. Biz bu şəhərdə daha çox tədbirlər təşkil edəcəyik, çünki hər bir türkün ürəyində Şuşa sevgisi var".

Bu fikirləri Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Rayev ifadə edib.

Şuşa təəssüratlarını, işğal dövründə orada yaranmış acınacaqlı vəziyyət barədə fikirlərini bölüşən Baş katib deyib: "Mən axırıncı dəfə Şuşada olanda orada çox görkəmli şəxsiyyətlərin heykəllərini gördüm. Heykəllərin bu cür vəziyyətə salınmasını gördükdə çox pis oldum. Ona görə də əvvəlcə biz şəhərin özünü bərpa etməliyik. Əgər biz bu şəhəri yenidən qursaq, eyni zamanda öz türklüyümüzü, türk dəyərlərini bərpa etmiş olacağıq. Biz Şuşanın bərpasına hərtərəfli kömək göstərəcəyik və onun inkişafını dəstəkləyəcəyik".

**Fotoetüd**



# "Azərişıq" ASC regionlarda yeni layihəyə start verib

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC 2022-ci ildən etibarən regionlarda yeni layihəyə start verib.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bu il ərzində ümumilikdə müxtəlif regionları əhatə edən 100-dən çox kənd və yaşayış məntəqəsinin elektrik enerji şəbəkəsi tamamilə yenidən qurulacaq.

Layihə çərçivəsində Cəlilabad və Biləsuvarın 13 kəndinin elektrik şəbəkəsi yenidən qurulur.

Cəlilabad rayonunun Sadatlı, Qamışlıgöl, Xəlilli, Albalan, Güneyli, Allahverən, Məşədilər, Novruzallı, Məlikqasımlı, Yusublu kəndlərində işlərə başlanılıb.

Görüləcək işlər çərçivəsində kəndlərdə ümumilikdə 33 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 111 kilometrə yaxın 10 kV-luq, 75 kilometrə yaxın 0,4 kV-luq elektrik xətləri yenilənəcək. 786 abonenti olan 10 kənddə elektrik sayğacları dəyişdiriləcək.

Biləsuvarın 3 kəndinin elektrik şəbəkəsi isə qurulur. Rayonun Amankənd, Təzəkənd və Dərvişli kəndlərində işlərə başlanılıb. 1232 abonenti olan bu 3 kənddə ümumilikdə 19 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 36 kilometrə yaxın 10 kV-luq, 65 kilometrə yaxın 0,4 kV -luq elektrik xətləri yenisi ilə əvəzlənəcək.

Xatırladaq ki, yeni layihə çərçivəsində digər regionlarda da işlər davam edir. Elektrik şəbəkəsi yenidən qurulan növbəti kəndlər haqqında qarşıdakı günlərdə əlavə məlumatlar veriləcək.

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti Ramana qəsəbəsinin bir hissəsinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması işlərinin satın alınması üçün *açıq tender elan edir*

*Təkrar*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (Əlaqələndirici şəxs: Abışev Murad Çingiz oğlu, telefon: + 99 412 431 47 67/87 - daxili 1087, E-mail: **murad.abishev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99 412 431 47 67 - daxili 2259, **E-mail: intizam.novruzov@azersu.az**) ala bilərlər.

**İşlərin qısa təsviri:**

Su və kanalizasiya şəbəkəsinin tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı: **500,00 (beş yüz) AZN**

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFTAIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (Əlavə №19);*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (Şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış);*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;*
- *malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (Vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);*
- *mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (Son beş il (01 yanvar 2017 - 31 dekabr 2021) ərzində ümumi məbləği 3 milyon AZN-dən az olmayan, oxşar işi əhatə edən **(oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır)** ən azı iki sifarişi baş podratçı kimi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (01 yanvar 2017 - 31 dekabr 2021) ərzində ən azı 5 milyon AZN dövriyyə tələb olunur) və TMV 1.6-cı bəndində tələb olunan digər tələblər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV 1-ci və 2-ci bəndində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 aprel 2022-ci** il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **13 may 2022-ci** il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **16 may 2022-ci il** saat 16:00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərenerji" ASC "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC 2022-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir

"Azərenerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 129 №-li 01 iyul 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun olaraq aşağıdakı ixtisaslar üzrə qəbul aparacaqdır:

3340.01 - Elektrotexniki sistemlər və komplekslər;
3341.01 - Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər;
3342.02 - İstilik elektrik stansiyaları (istilik hissəsi);
5312.01 - Sahə iqtisadiyyatı.

"Fəlsəfə doktoru" proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ***ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);***
- ***kadrların şəxsi-qeydiyyat vərəqi;***
- ***tərcümeyi-hal;***
- ***iş yerindən xasiyyətnamə;***
- ***2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);***
- ***iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;***
- ***çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;***
- ***ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);***
- ***xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, TestDaf, DALF əgər varsa) və ya xarici dildən keçid balını təsdiq edən Dövlət İmtahan Mərkəzi tərəfindən verilən sənəd;***
- ***şəxsiyyəti təsdiq edən sənədin surəti.***

**"Elmlər doktoru" proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.**

"Elmlər doktoru" proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ***ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);***
- ***kadrların şəxsi-qeydiyyat vərəqi;***
- ***tərcümeyi-hal;***
- ***2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);***
- ***iş yerindən xasiyyətnamə;***
- ***əmək kitabçasından çıxarış;***
- ***çap olunmuş elmi işlərin siyahısı;***
- ***"Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;***
- ***ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);***
- ***şəxsiyyəti təsdiq edən sənədin surəti.***

**Qeyd:** Xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Doktorantura və ya dissertanturaya sənədlərin qəbulu elan dərc olunduğu tarixdən bir ay müddətinədək aparılacaqdır.

***Ünvan:*** *AZ1012, Zərdabi pr., 94 Əlaqə telefonu: 0502288427 Ülviyyə Nəsibova*

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 01 aprel 2022-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 35 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

Bundan əlavə, İdarə Heyətinin eyni tarixli qərarı ilə lisenziya sahiblərinin lisenziyalarının qüvvəsinin dayandırılmasına əsas vermiş halları müəyyən edilmiş müddətdə aradan qaldırmadığını nəzərə alaraq, Qanunun 107.1.2-ci maddəsinə müvafiq olaraq siyahıda göstərilən (siyahı əlavə olunur) 6 nəfər fiziki şəxsə və 1 hüquqi şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

### "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən, lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin SİYAHISI

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Abduləlizadə Röyal Zöhrab oğlu | 11.04.2013 | 000924 | 6000701402 |
| 2 | Ataşov Emin Mətləb oğlu | 12.12.2012 | 000807 | 2700631652 |
| 3 | Babayev Fərhad Əliniyaz oğlu | 19.10.2012 | 000783 | 2902576922 |
| 4 | Cavadov Müşfiq İsgəndər oğlu | 16.04.2012 | 000629 | 3400470352 |
| 5 | Cəbiyev Sahib İdris oğlu | 12.12.2012 | 000818 | 8400455612 |
| 6 | Cəfərova Şəlalə Vidadi qızı | 05.10.2018 | SA-0040 | 6900598032 |
| 7 | Cəfərov Sadıq Nurəddin oğlu | 05.10.2018 | SA-0045 | 6900598442 |
| 8 | Cəfərzadə Elvin Şükür oğlu | 13.06.2011 | 000443 | 1901210082 |
| 9 | Cəlili Alıqulu Səməndər oğlu | 13.06.2011 | 000441 | 1900805402 |
| 10 | Cəmilov Namiq Əli oğlu | 27.01.2015 | 080646 | 5500807382 |
| 11 | Darai Rüstəm Fərəməz oğlu | 08.05.2012 | 000638 | 2301889562 |
| 12 | Eyvazov Sərdar Mülk oğlu | 05.03.2012 | 000573 | 4400561412 |
| 13 | Əhmədov Anar Vaqif oğlu | 11.04.2013 | 000912 | 2002594032 |
| 14 | Ələkbərov Vidadi Maqsud oğlu | 30.01.2012 | 000544 | 1002431472 |
| 15 | Əliyev Anar Eldar oğlu | 11.04.2013 | 000915 | 2302195722 |
| 16 | Gərayev Cəmil Əllam oğlu | 20.09.2012 | 000766 | 5400417492 |
| 17 | Heybətov Nemət Heybət oğlu | 19.10.2012 | 000781 | 7700912602 |
| 18 | Həbibov Səfa Oqtay oğlu | 12.12.2012 | 000809 | 4400625742 |
| 19 | Həsənov Əliqadir Səmidxan oğlu | 05.03.2012 | 000583 | 6800603042 |
| 20 | Hüseynov Ramil Amil oğlu | 18.08.2011 | 000461 | 1100639212 |
| 21 | İsgəndərov Məsim Əlövsət oğlu | 12.12.2012 | 000810 | 3300376272 |
| 22 | Kərimov Zaur Tarzan oğlu | 06.05.2011 | 000429 | 1302439872 |
| 23 | Qarayev Vüsal Cəmil oğlu | 06.05.2011 | 000434 | 1601343382 |
| 24 | Mahmudov Emil Elman oğlu | 19.10.2012 | 000784 | 0200655082 |
| 25 | Məlikov Nemət Beydulla oğlu | 16.10.2014 | 080622 | 7700114652 |
| 26 | Məmmədov Elnur Adil oğlu | 06.05.2011 | 000433 | 1302469582 |
| 27 | Mirzəyev Samir Eldar oğlu | 30.01.2012 | 000556 | 0200633342 |
| 28 | Nağıyev Mehiyəddin Vilayət oğlu | 05.10.2018 | SA-0053 | 4101387252 |
| 29 | Nəcəfov Elxan Hüseyn oğlu | 30.01.2012 | 000537 | 1500988972 |
| 30 | Nəsirov Emin Adil oğlu | 07.08.2012 | 000721 | 2301917672 |
| 31 | Rəhimov Nihat Cavanşir oğlu | 05.12.2011 | 000510 | 1701263422 |
| 32 | Vəliyev Emil Qafar oğlu | 28.06.2012 | 000690 | 1901441742 |
| 33 | Vəliyev Mehman Ənvər oğlu | 20.09.2012 | 000749 | 4000583092 |
| 34 | Zamanov Lətif Arif oğlu | 18.08.2011 | 000472 | 1002195482 |
| 35 | Zodorov Məhəmməd Muhma oğlu | 11.04.2013 | 000913 | 3800463102 |

### "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.2-ci maddəsinə əsasən, lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin və müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğul olan hüquqi şəxsin SİYAHISI

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Dadanov Mahir Nurəddin oğlu | 03.12.2018 | SA-0113 | 1503748402 |
| 2 | Hacıbalayev Mənsur Məclum oğlu | 28.06.2012 | 000695 | 1002575682 |
| 3 | İsmayılov Ramin Şükür oğlu | 19.03.2014 | 080552 | 1501572502 |
| 4 | Məmmədov Abbas Hidayət oğlu | 07.08.2015 | 080709 | 2901888162 |
| 5 | Mirzəyev Əlizamin Mehman oğlu | 22.06.2015 | 080671 | 7301134852 |
| 6 | Şəkərxanov İlkin Şahsoltan oğlu | 21.07.2009 | 000216 | 4400381402 |
| 7 | "Sizin Sığorta Agentliyi" MMC | 23.07.2013 | 000969 | 1402241691 |

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün 19 litrlik qablaşdırılmış içməli dispenser suyunun satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 15 mart 2022-ci il tarixli qərarına əsasən, "KRİSTAL LTD" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***







«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Anatoliy Rafailov Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevə qardaşı

**ƏLƏDDİN ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5639
Sifariş 916
Qiyməti 40 qəpik